QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 174 (5162) **24 sentyabr** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev XV Yay Paralimpiya Oyunlarında iştirak etmiş idmançılarla görüşüb

*"İdman Azərbaycanda sürətlə inkişaf edir və hər bir mötəbər beynəlxalq yarışda idmançılarımız bizi sevindirir"*



Səh 2

10

"Azərbaycan keçmiş postsovet və Şərqi Avropa məkanında ən azad ölkədir"



12

"Azərbaycan təhdid və təzyiq dili ilə danışmağı qəbul etmir"



13

ABŞ və Qərb dünyası Azərbaycanın sabit və demokratik inkişafını qısqanclıqla qarşılayır



# Prezident İlham Əliyev XV Yay Paralimpiya Oyunlarında iştirak etmiş idmançılarla görüşüb

## *“İdman Azərbaycanda sürətlə inkişaf edir və hər bir mötəbər beynəlxalq yarışda idmançılarımız bizi sevindirir”*

***Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XV Yay Paralimpiya Oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında bildirib ki, İdman Azərbaycanda sürətlə inkişaf edir və hər bir mötəbər beynəlxalq yarışda idmançılarımız bizi sevindirir:***



-Bir neçə gün bundan əvvəl Rioda Paralimpiya Oyunları başa çatıb. Bizim komandamız Vətənə qayıdıb. Bu gün mən sizi dəvət etmişəm ki, sizi təbrik edim. Komandamız çox yaxşı çıxış edib. Biz bu Oyunlarda 24 idmançı ilə təmsil olunmuşuq və 11 medal qazanmışıq. Onlardan biri qızıl, səkkizi gümüş, ikisi isə bürünc medaldır. Bu, çox yaxşı göstəricidir. Bu, bir daha onu göstərir ki, bizim paralimpiyaçılarımız güclü komandalar sırasındadır.

Bildiyiniz kimi, sizdən əvvəl bizim Olimpiya komandamız da Rioda çox yaxşı nəticələr göstərmişdir, 18 medal qazanmışdır. Olimpiya və Paralimpiya Oyunlarında Azərbaycan idmançıları 29 medal qazanmışlar. Bu, bir daha onu göstərir ki, Azərbaycan güclü idman dövlətidir. İdman Azərbaycanda sürətlə inkişaf edir və hər bir mötəbər beynəlxalq yarışda idmançılarımız bizi sevindirir. Bildiyiniz kimi, idmanın inkişafına böyük diqqət göstərilir. Bu, bizim siyasətimizin əsas prioritetlərindən biridir. Hər bir ölkənin gücünü əks etdirən həm də onun idman potensialıdır, idman nailiyyətidir. Azərbaycanda hər sahədə olduğu kimi, idmanda da böyük inkişaf var. Şadam ki, idmanla məşğul olmaq istəyənlərin sayı artır. İdmançılar Azərbaycanda böyük hörmətə layiqdirlər və ictimaiyyət tərəfindən onların fəaliyyətinə yüksək qiymət verilir.

Dövlət idmançıları həmişə qayğı ilə əhatə edir və bizim idmançılarımız həm idman yarışlarında, eyni zamanda, məişətdə də nümunəvi davranış qaydaları göstərirlər. Çünki idman elə bir fəaliyyət növüdür ki, burada güclü qalib gəlməlidir, burada daim ədalət zəfər çalmalıdır. Bəzən biz görürük ki, bəzi yarışlarda ədalətsiz qərarlar qəbul edilir, o cümlədən bizim idmançılara qarşı. Əlbəttə ki, bu, bizi çox narahat edir və incidir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan artıq dəfələrlə müxtəlif beynəlxalq yarışlarda sübut edib ki, biz doğrudan da güclü idman dövlətiyik, bizim güclü idmançılarımız var və idmançılar Azərbaycanın şöhrətini daim yüksəklərdə saxlayırlar.

İdmanın inkişafı ilə bağlı kompleks tədbirlər görülür. Məhz bunun nəticəsidir ki, bu gün biz Avropa, dünya çempionatlarında, Olimpiya və Paralimpiya Oyunlarında yüksək nəticələr göstəririk. Həm təlim-məşq prosesi düzgün təşkil edilir, həm də idman infrastrukturu yaradılır. Bizim bölgələrimizdə 40-dan çox regional Olimpiya Mərkəzi fəaliyyət göstərir. Bir neçə Olimpiya Mərkəzində tikinti işləri gedir və gələn il bu işlər davam etdiriləcək. 2008-ci ildə paralimpiyaçılar üçün xüsusi Olimpiya İdman Mərkəzi yaradılmışdır və orada bizim idmançılarımız məşq edirlər. Digər infrastruktur yaradılır. Bakıda ən yüksək beynəlxalq yarışları qəbul edə biləcək idman obyektləri var. Keçən il Avropa Oyunlarının keçirilməsi zamanı bütün dünya bunu gördü. Yeri gəlmişkən, ötən il Avropa Oyunlarının keçirilməsi də bizim idman potensialımızı əks etdirir. Çünki bu qərarın qəbul edilməsində Avropa Olimpiya Komitəsi eyni zamanda bizim idman potensialımızı da nəzərə almışdır. Əlbəttə, bizim ölkəmiz də, Bakı şəhəri də bu Oyunların keçirilməsinə hazırlıqlı idi və bütün qonaqlar, Azərbaycana gələn minlərlə idmançı bunu gördülər. Əlbəttə, bu, Azərbaycanda idman sahəsində əldə edilmiş uğurların da nəticəsi idi. Bizim komandamız tarixi qələbə qazanaraq 50 milli olimpiya komandası arasında ikinci yerə layiq görülmüşdür, o cümlədən paralimpiyaçılar da bizi sevindirmişlər.

Bütövlükdə ölkəmizin inkişafı ilə bağlı lazımi addımlar atılır. Bu inkişafla bilavasitə bağlı olan əlbəttə ki, ölkəmizin dünyaya tanıdılmasıdır və burada idmanın xüsusi yeri var. Misal üçün, Avropa Oyunları bütün Avropanın diqqətini Azərbaycana cəlb etmişdir. Bu il keçirilmiş “Formula-1” yarışının auditoriyası 500 milyon insandır. Bu 500 milyon insan gördü ki, Bakı şəhəri bu yarışı keçirməyə qadirdir. Eyni zamanda, onlar Bakının gözəlliyini, abadlığını, şəhərimizin, sakinlərimizin həyatını gördü və əlbəttə ki, bu, bir çoxları üçün sürpriz idi. Təsəvvür edə bilmirdilər ki, Azərbaycan bu dərəcədə inkişaf edib, Bakı şəhəri dünya miqyasında ən gözəl şəhərlərdən birinə çevrilib.

Bu il, eyni zamanda, Ümumdünya Şahmat Olimpiadası Bakıda keçirilmişdir. İştirak edən komandaların sayına görə bu, rekord nəticə idi. Beynəlxalq Şahmat Federasiyasının rəhbərlərinin fikrinə görə, bu, ən yaxşı təşkil edilmiş Ümumdünya Şahmat Olimpiadası idi. Yəni, bizim bu sahədə gözəl təcrübəmiz var, bütün təşkilati işlər yüksək səviyyədə həll olunur və bu gün Azərbaycan dünya miqyasında güclü dövlət, güclü idman dövləti kimi tanınır. İdmançılar əldə etdikləri medallarla idman şöhrətimizi ucaldırlar. Bakıda keçirilən beynəlxalq yarışlar bütün dünyaya Azərbaycanı gözəl, inkişaf etmiş, mütərəqqi ölkə kimi təqdim edir.

Ölkəmizdə beynəlxalq yarışların keçirilməsi davam edir. Gələn il İslam Həmrəyliyi Oyunları keçiriləcək. Əgər keçən il biz Avropa idmançılarını Azərbaycana yığmışdıqsa, gələn il müsəlman idmançılarını Bakıda bir yerə toplayacağıq. Bu, ölkəmizin inkişafını, bizim niyyətimizi göstərir. Mən əminəm ki, idman xalqlararası, dinlərarası əlaqələrin inkişafına çox əhəmiyyətli töhfə verir. Bizim ölkə idman yarışlarının keçirilməsi ilə, eyni zamanda, bu məqsədi də güdür. İdmanın cəmiyyətə çox böyük müsbət təsiri var. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün idmanın çox böyük rolu var. Gənc nəslimiz - uşaqlar, yeniyetmələr sizə baxıb nümunə götürürlər ki, siz dövlətimizi necə ləyaqətlə təmsil edirsiniz, bayrağımızı yüksəklərə qaldırırsınız. Bizim paralimpiyaçılarımız Rioda bayrağımızı 11 dəfə qaldırmışlar. Gənc nəsil həm bilikli, peşəkar, eyni zamanda, mütləq vətənpərvər olmalıdır. Çünki vətənpərvərlik dövlətçiliyimizin əsasıdır.

Biz bu il müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu illərin mütləq əksəriyyəti şanlı-şöhrətli illərdir. Fəxr edirik ki, bu gün bu səviyyəyə qalxmışıq. Gənc nəsil bu dəyərləri mütləq gələcəkdə yaşatmalıdır ki, inkişafımız dayanıqlı olsun, Azərbaycan daim müstəqil ölkə kimi yüksək zirvələrdə olsun. Ona görə, sizin Rioda gözəl çıxışınız, eyni zamanda, gənclərə də gözəl bir nümunədir. Əminəm ki, bu yarışlardan - Olimpiya, Paralimpiya Oyunlarından sonra bizim idman bölmələrimizə müşahidə olunan axın daha da güclənəcək. Mən bu gün sizi bir daha ürəkdən təbrik edirəm, sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Oyunlarda fərqlənən idmançılar dövlət mükafatları ilə təltif olunmuşlar. İndi isə təltifetmə mərasiminə keçək.

**X X X**

Sonra təltifetmə mərasimi oldu. Prezident İlham Əliyevin Azərbaycan milli paralimpiya komandasının üzvlərinin təltif olunması ilə bağlı sərəncamları elan edildi. Dövlətimizin başçısı Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XV Yay Paralimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”nu, “Tərəqqi” medallarını, “Vətənə xidmətə görə” və “Şöhrət” ordenlərini təqdim etdi, onlara bir daha uğurlar arzuladı. Cüdo üzrə ikiqat Paralimpiya, ikiqat dünya, beşqat Avropa çempionu, birinci Avropa Oyunlarının qalibi İlham Zəkiyev çıxış edib:

- Çox sağ olun, cənab Prezident. Allah Sizin köməyiniz olsun. Sizə bir daha minnətdaram.

Mən kapitan və bayraqdar olduğuma görə Paralimpiya Oyunlarının açılışında bizim komandanın rəhbərliyi qərara aldı ki, mən arenaya milli geyimdə çıxım. Bu da hamının xoşuna gəldi. Bir kapitan kimi mən də çıxışımla bağlı demək istəyirəm ki, cənab Prezident, səhhətimdə bir az problemlər oldu. Təzyiqim düşmüşdü, qızdırmam da var idi. Amma Azərbaycan əsgəri heç vaxt təslim olmur. Mən axıra qədər döyüşdüm. Allah Sizin köməyiniz olsun. Siz mənə həmişə belə yüksək diqqət və qayğı göstərirsiniz. Siz idmançılarımızı mükafatlara layiq görəndə biz hələ Rioda idik. Bu böyük qiymətə görə Sizə minnətdaram. Siz Bişkekdə o yalançı Sarkisyanı susdurdunuz. Allah Sizi qorusun. Biz Sizinlə fəxr edirik. Var olsun, Azərbaycan Prezidenti. Allah Sizin köməyiniz olsun.

Prezident İlham Əliyev: Çox sağ ol. İlham bizim fəxrimizdir. İki dəfə Paralimpiya çempionudur, Avropa Oyunlarının qalibidir. Mən çox şadam ki, bu gün biz İlhamı burada təbrik edirik və fəxri diplom da təqdim olunur.

“Rio-2016”da nizəatma yarışlarının gümüş medalçısı İradə ƏLİYEVA təltifə görə dövlətimizin başçısına təşəkkür etdi.

Prezident İlham Əliyev: Yaxşı çıxış etdiniz. Biz sizə azarkeşlik edirdik. Bu gənc yaşda yüksək mükafat münasibətilə sizi təbrik edirik.

İradə Əliyeva: Qazanılan bütün 11 medaldan beşi atletikanın payına düşür və 4 medalı qızlar qazanıb. Dəstəyinizə görə çox sağ olun.

***Ardı-Səh-3***

Əvvəli-Səh-2

Prezident İlham Əliyev: Afərin! Bizim qızlar mübarizdirlər. Siz ikiniz 4 medal qazanmısınız. Afərin!

İradə Əliyeva: Yelena Çebanu üç növdə medal qazanıb. Mənim bir medalım var.

Prezident İlham Əliyev: Çox yaxşı. Bu uğur münasibətilə sizi təbrik edirəm.

Cüdo komandasının baş məşqçisi İbrahim Ibrahimov:

- Möhtərəm cənab Prezident, bu gün bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Biz cüdo komandası olaraq, bu Oyunlarda üç medal qazandıq - bir qızıl, bir gümüş və bir bürünc. Bunların hər biri idmanın inkişafına Sizin göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Buna görə, Sizə minnətdarıq. Bu gün idman sahəsində lider dövlət olan Azərbaycanın Sizin kimi Prezidenti var. Digər ölkələrin idmançıları bizə həsəd apararaq deyirlər ki, sizə kömək göstərən, sizin qayğınıza qalan Prezidentiniz var. Biz həmişə Sizinləyik, Sizin siyasətinizi dəstəkləyirik.

Prezident İlham Əliyev: Çox sağ olun.

Təltifə görə dövlətimizin başçısına minnətdarlığını bildirən XV Yay Paralimpiya Oyunlarının qızıl medalçısı Ramil Qasimov dedi:

- Çox sağ olun, cənab Prezident. Bizə göstərdiniz yüksək diqqətə görə Sizə çox minnətdaram. Mən Gəncə şəhərindənəm. Gəncə şəhərinə ikinci qızıl medalı aparıram. Çox minnətdaram ki, şəhərimizi də o cür abadlaşdırmısınız. Fəxr edirik ki, bizim Prezidentimiz Sizsiniz. Çox minnətdaram, sağ olun.

X X X

Paralimpiyaçıları bir daha təbrik edən Prezident İlham Əliyev qeyd edib ki, idman yarışlarında, bütün digər sahələrdə Azərbaycan yalnız qabağa gedəcək:

- Əziz dostlar, sizi bir daha ürəkdən təbrik edirəm. Doğrudan da bu, böyük qələbədir. Siz xalqımızı bir daha sevindirmisiniz. Gələcəkdə yeni yarışlar, yeni döyüşlər olacaq. Əminəm ki, siz bütün yarışlarda xalqımızı, millətimizi, dövlətimizi ləyaqətlə təmsil edəcəksiniz, bizi sevindirəcəksiniz. Növbəti böyük yarışlar dörd ildən sonra Tokioda keçiriləcək. Ondan əvvəl də yarışlar olacaq. Əsas odur ki, bizim komandamız həmişə belə gözəl, vətənpərvər komanda olsun. Siz həmişə çalışasınız, dövlətimizi, xalqımızı sevindirəsiniz və bir daha bütün dünyada göstərəsiniz ki, Azərbaycan qüdrətli dövlətdir. Bizim gücümüz xalqımızın gücünə əsaslanır. İdman yarışlarında, bütün digər sahələrdə Azərbaycan yalnız qabağa gedəcək. Sizi bir daha təbrik edirəm.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev XV Yay Paralimpiya Oyunlarında iştirak etmiş idmançılarla görüşüb

*"İdman Azərbaycanda sürətlə inkişaf edir və hər bir mötəbər beynəlxalq yarışda idmançılarımız bizi sevindirir"*









# Azərbaycanda ipəkçiliyin inkişafı diqqət mərkəzindədir

*Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, barama istehsalı ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi yaş baramanın hər kiloqramına görə subsidiya müəyyən ediləcək*








Dünyada cərəyan edən qlobal iqtisadi və maliyyə böhranı, bütün sahələrə olduğu kimi, neftin də qiymətinə mənfi təsirini göstərdi. Bununla da, neft hasilatı ilə məşğul olan ölkələrin gəlirlərində azalmalar müşahidə olunmağa başladı. Təbii ki, bu proses Azərbaycandan da yan keçmədi və ölkəmizin neft satışından əldə etdiyi gəlirlər, demək olar ki, 2 dəfə azalmış oldu. Belə bir vəziyyətdə Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının dayanıqlılığını artırmaq və insanların rifah halının yüksək saxlanılması üçün neftsiz iqtisadiyyat, daha doğrusu, postneft inkişaf strategiyasını irəli sürdü. Bu strategiyada isə, əsasən, kənd təsərrüfatının və qeyri-neft sektorunun inkişafı prioritet kimi irəli sürüldü. Elə sonuncu Nazirlər Kabinetinin iclasında da Prezident İlham Əliyev bu məsələ ilə bağlı ətraflı çıxış etdi və sonrakı addımlar, imzalanmış sərəncamlar və fərmanlar dövlətin sözügedən məsələdə iradəsini ortaya qoydu. Bir neçə gün öncə Prezident İlham Əliyevin ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında Sərəncam imzalaması deyilənlərin əyani sübutu sayıla bilər. Belə ki, ölkədə kənd təsərrüfatının ənənəvi sahələrindən olan ipəkçiliyin inkişafına dövlət dəstəyini gücləndirmək, bu sahənin potensial imkanlarından səmərəli istifadə etmək, rəqabət qabiliyyətini və barama istehsalı ilə bağlı əhalinin məşğulluğunu artırmaq, marağını gücləndirmək və sosial rifahını daha da yaxşılaşdırmaq məqsədilə barama istehsalı ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi yaş baramanın hər kiloqramına görə subsidiya müəyyən ediləcək. Sərəncama əsasən, Nazirlər Kabineti barama istehsalı ilə məşğul olan şəxslərə barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi yaş baramanın hər kiloqramına görə, növündən asılı olaraq veriləcək subsidiyanın məbləğini və verilmə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq edəcək. Qeyd edək ki, baramaçılıq olduqca qədim tarixə malik gəlirli məşğulluq növlərindən biridir. Tarixi mənbələrə görə, tut ipəkqurdundan ipəyin alınması hələ eramızdan əvvəl XXVII əsrlərdə məlum olub. Arxeoloji qazıntılar bu sənətin, hətta eramızdan 5 min il əvvəl mövcud olduğunu da deməyə əsas verir. Baramaqurdu əsasında ipəkçilik qədim zamanlardan Çin,Yaponiya, Cənubi Koreya, Hindistan, İran, Türkiyə, Orta Asiya və Cənubi Qafqaz ölkələrində, həmçinin, digər ərazilərdə inkişaf edib. VII əsrdən isə ipəkçilik Azərbaycanda inkişaf etməyə başlayıb. Bunun üçün Azərbaycan ərazisinin səth quruluşu, əlverişli iqlim şəraiti, xüsusən, bol günəş işığı, tarixi əmək vərdişləri, tut ağaclarının yetişdirilməsi üçün əlverişli şərait imkan verirdi. XI-XII əsrlərdə Bərdə, Şamaxı, Gəncə, Şəki və digər şəhərlərdə fəaliyyət göstərən ipək istehsalı müəssisələri kəmiyyət və keyfiyyətlərinə görə bütün dünyada şöhrət qazanıb. XIX əsrdə Rusiyada ipək istehsalı müəssisələri, əsasən, Azərbaycandan alınan barama xammalı hesabına işləyib. Sovet İttifaqı dövründə ölkəmizdə istehsal olunan ipək parça təkrar emal üçün SSRİ-nin 250 ipək parça kombinatlarına göndərilirdi. Lakin əfsuslar olsun ki, müstəqilliyimizin bərpasından sonra, bir çox sahələr kimi, baramaçılıq da tənəzzülə uğrayıb.

Azərbaycanda vaxtilə yüksək gəlir gətirən, 150 min nəfərin çalışdığı baramaçılıq sahəsinin yenidən canlandırılması üçün ciddi addımlar atılmaqdadır. Fəaliyyətini dayandırmış 7 barama toxumu zavodu, 2 damazlıq ipəkçilik stansiyası, 30 barama qurutma məntəqəsi, 80-ə qədər barama tədarükü və ilkin emalı müəssisələri fəaliyyətini yenidən bərpa etmək ərəfəsindədir. Xatırladaq ki, hələ ötən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında, Dağlıq Qarabağ rayonlarında və Azərbaycanın 31 inzibatı rayonunda hər il orta hesabla 4,3-5 min ton barama istehsal olunurdu. Həmin dövrdə Azərbaycan dünyada barama istehsalına görə 8-ci, SSRİ-də isə Özbəkistandan sonra 2-ci yeri tuturdu. Vaxtilə bəzi zonalarda əhalinin təxminən 85-90 faizi ipəkçiliklə məşğul olub. Azərbaycan ipəyi dəfələrlə sərgilərdə qızıl medala layiq görülüb. Xüsusilə, Ordubad və Şəki ipəyi 5 qızıl medal alıb.

Bir sözlə, bu gün Azərbaycanda, digər sahələrdə olduğu kimi, baramaçılıqda da stimullaşdırıcı tədbirlər həyata keçirilməkdədir. Dövlətin prioritet vəzifələrindən biri odur ki, Azərbaycanın qədim ipəkçilik ənənələri bərpa edilsin, yeni iş yerləri açılsın və insanların gəlirləri dəfələrlə artsın. Təbii ki, bu prosesdə dövlət üzərinə düşən vəzifələri yerinə yetirir və bundan sonra da edəcək. Lakin buna paralel olaraq insanlar da işgüzarlıq potensiallarını artırmalı, daha çox işləməli, evlərinə və dövlət büdcəsinə gəlir gətirməlidirlər. Qarşılıqlı fəaliyyət nəticəsində, həm Azərbaycanımız inkişaf edəcək, həm də insanlarımızın maddi rifah halı dəfələrlə artacaq.

***"Səs" Analitik Qrupu***

# Bolqarıstanın Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun açılışı olub

## *Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib*










***Bolqarıstanın Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun sentyabrın 22-də açılışı olub. Azərbaycan birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Bolqarıstanın Baş naziri Boyko Borisov, Veliko Tırnovo şəhərinin meri Daniel Panov və digər rəsmi şəxslər Mehriban Əliyevanı və Leyla Əliyevanı qarşıladılar. Əvvəlcə burada xatirə lövhəsinin açılışı oldu. "Bu tədbirdə iştirak etmək mənim üçün şərəfdir", - deyən Veliko Tırnovo şəhərinin meri Daniel PANOV sakinlər adından Azərbaycanın birinci xanımına bu layihəyə görə minnətdarlığını bildirdi. "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun tarixindən danışan mer bildirdi ki, bu qədim abidənin bərpa edilməsi bolqar xalqının uzun illərdən bəri arzusu olub və bu arzunu Heydər Əliyev Fondu gerçəkləşdirib. Mer bu nəcib missiyanın həyata keçirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya bir daha təşəkkürünü bildirdi. O, Azərbaycanın birinci xanımına, Leyla Əliyevaya və Bolqarıstanın Baş nazirinə xatirə hədiyyələri təqdim etdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə çıxış etdi:

-Hörmətli mer, əziz qonaqlar, əziz dostlar. Çox şadam ki, sizin gözəl ölkənizdə, qədim Veliko Tırnovo şəhərindəyəm. İcazə verin, səmimi qəbula və qonaqpərvərliyinizə görə sizə dərin minnətdarlığımı bildirim. Bizim görüşümüz əlamətdar bir gündə - Bolqarıstanın Müstəqillik günündə keçir. Bu bayram münasibətilə bütün bolqar xalqını ürəkdən təbrik edir, sülh və firavanlıq diləyirəm. Mən, eyni zamanda, sizi "Trapezitsa" Memarlıq Muzey Qoruğunun bərpadan sonra açılışı münasibətilə təbrik edirəm. Mənə çox xoşdur ki, bu mədəniyyət-muzey mərkəzinin bərpasına Heydər Əliyev Fondu öz töhfəsini verib. Yaşıl təpələr arasında yerləşən Veliko Tırnovo şəhəri XII-XIV əsrlərdə Avropanın aparıcı mədəni, tarixi, ictimai-siyasi mərkəzlərindən biri olub və əvvələn özünün bənzərsiz təbiəti, gözəlliyi, habelə məhz memarlıq xüsusiyyətləri, müdafiə təyinatlı qala divarları ilə fərqlənib. "Trapezitsa" qoruğu bütün bolqar xalqının milli sərvətidir, eyni zamanda, o, Ümumavropa mədəni irsidir. Buna görə bir daha demək istəyirəm ki, dünya əhəmiyyətli bu tarixi-mədəni irsin bərpasına öz töhfəmizi verdiyimizə görə biz də, fondumuz da çox qürur duyuruq.

Əziz dostlar, bizim ölkəmiz Azərbaycan Avropa ilə Asiya arasında, sivilizasiyaların qovuşuğunda yerləşir. Təbii ki, minilliklərlə ölçülən tarix onun mədəni müxtəlifliyində çox böyük rol oynayıb, iz qoyub. Minilliklər boyu bizim ölkəmizin ərazisində müxtəlif millətlərdən, müxtəlif dinlərdən olan insanlar yaşayıb və həmişə sülh və dostluq şəraitində yaşayıb. Azərbaycanda heç vaxt konfessiyalararası və ya millətlərarası zəmində problemlər olmayıb. Bu gün biz müasir müstəqil Azərbaycanda hökm sürən tolerantlıq, dözümlülük, qarşılıqlı hörmət şəraiti ilə fəxr edirik.

Ardı-Səh-6

# Bolqarıstanın Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun açılışı olub

## *Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib*





Əziz dostlar, sonda bizə kömək edənlərin, bu layihənin həyata keçirilməsinə aidiyyəti olanların hamısına, ilk növbədə, cənab Baş nazir, sizə təşəkkür etmək istəyirəm ki, bu gün bizimlə bərabər rəsmi mərasimdə iştirak edirsiniz və bərpa dövründə bütün prosesə daim nəzarət etmisiniz. Bolqarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Maya Xristovanı xüsusi qeyd etmək, ona təşəkkürümü bildirmək istərdim. Ölkələrimiz arasında, xüsusən humanitar sahədə əlaqələrin möhkəmlənməsində onun rolu çox böyükdür. Bu layihəni qısa müddət ərzində həyata keçirmiş tikinti şirkətlərinə təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, əməkdaşlıq haqqında saziş keçən il may ayında imzalanıb və artıq bu gün biz bərpa olunmuş qoruğu açırıq. Qonaqpərvərliyinizə görə sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Sizi milli bayramınız münasibətilə təbrik edir, hamınıza möhkəm cansağlığı, xoşbəxtlik və bol-bol sevgi arzulayıram. Çox sağ olun.

X X X

Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin uzun illərdir dostluq şəraitində inkişaf etdiyini deyən Bolqarıstanın Baş naziri Boyko BORİSOV abidənin bərpa edilməsinə görə Prezident İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və Fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlığını bildirdi. Baş nazir bu hadisəni ölkələrimiz arasında möhkəm dostluq körpüsü adlandırdı. Boyko Borisov Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş qədim mədəniyyət abidəsinin Azərbaycan-Bolqarıstan dostluğunun inkişafına xidmət edəcəyini vurğuladı. O, həmçinin Mehriban Əliyevanın "Bakı-2015" birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbəri kimi uğurlu fəaliyyətindən də danışdı.

Sonra mərasim iştirakçıları qoruğun ərazisində yaradılan Mədəni İrs Mərkəzi ilə tanış oldular. Mərkəzdə Veliko Tırnovo və "Trapezitsa"nın, həmçinin İkinci Bolqar Xanlığının tarixi və burada aparılan arxeoloji tədqiqatlar barədə məlumatlar verilir, eləcə də orta əsrlərə aid müxtəlif eksponatlar sərgilənir. Tırnov şəhəri İkinci Bolqar dövlətinin məşhur paytaxtı, XII əsrin sonundan XIV əsrin sonunadək Avropanın dövlətçilik, mənəvi və mədəni mərkəzi olub.

Sonra Heydər Əliyev Fondunun "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası layihəsinə həsr olunan, Azərbaycan və bolqar dillərində buraxılan poçt markaları təqdim edildi.

Təqdimat mərasimindən sonra poçt markalarının xatirə nüsxələrinin imzalanması mərasimi keçirildi.

Qeyd edək ki, "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası, texniki infrastrukturunun inşası və təmiri haqqında" saziş 2015-ci il mayın 27-də Sofiyada imzalanıb. Sazişə əsasən, Heydər Əliyev Fondu tarixi abidədə 158 metr uzunluğunda qərb divarının konservasiyası və bərpasını, 880 metr uzunluğunda turizm xiyabanının salınmasını, mədəni irs mərkəzinin yaradılmasını, ərazidəki orta əsrlərə aid 3 kilsənin təmiri və konservasiyasını həyata keçirib. Qoruğun ərazisində bərpa edilən tarixi kilsələrlə tanışlıq zamanı bildirildi ki, XIII və XIV əsrlərə aid bu kilsələr nəinki qoruğun, eləcə də Bolqarıstanın tarixi dini abidələrindən hesab edilir.

Bolqarıstan və Şərqi Avropada tarixi turizm mərkəzlərindən biri olan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunda konservasiya və bərpa işləri 10 ay davam edib. Qoruq bolqar xalqının zəngin mədəni dəyərlərini əks etdirir.

**_İqbal Hacıyev_**
**_AZƏRTAC-ın xüsusi müxbiri_**
**_Veliko Tırnovo_**

Əvvəli-Səh-5

Biz müsəlman ölkəsi olmaqla ənənələrimizə, dinimizə, mədəniyyətimizə hörmət edirik. Lakin bununla bərabər biz dünyanın bütün mədəni müxtəlifliyinə eyni dərəcədə hörmətlə yanaşırıq.

Heydər Əliyev Fondu məhz dünyanın mədəni müxtəlifliyi, tolerantlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq təkcə Azərbaycanda deyil, bütün dünyada mədəni irsin dəstəklənməsi üzrə layihələr həyata keçirir. Fondun dəstəyi ilə Versal sarayındakı heykəllər bərpa olunub. Biz Strasburq kilsəsinin bərpasında iştirak etmişik. Romadakı Kapitoliya muzeyində "Filosoflar zalı" bərpa edilib. Biz Vatikan muzeylərindəki nadir əlyazmaları bərpa edirik. Azərbaycan yeganə müsəlman ölkəsidir ki, ən qiymətli xristian relikviyalarından birinin - Vatikandakı Müqəddəs Marçellino və Pyetro katakombalarının bərpası üzrə böyük bir layihəni həyata keçirib.

Təəssüf ki, müasir dünyada ksenofobiya, radikalizm, terrorizm kimi proseslərin güclənməsini görürük. Hesab edirəm ki, məhz humanitar, mədəniyyətlərarası əlaqələr, başqa mədəniyyətin qavranılması, anlamaq, dərk etmək, kömək etmək cəhdi bütün bu cür mənfi hallara qarşı mübarizədə çox vacib silahdır. Mən çox şadam ki, layihələrimizdən biri bizə dost ölkədə - Bolqarıstanda həyata keçirilib. Azərbaycan ilə Bolqarıstan arasında qarşılıqlı hörmətə, qarşılıqlı marağa əsaslanan çox möhkəm əlaqələr var. Azərbaycan ilə Bolqarıstan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu münasibətlərin bütün səviyyələrdə inkişafı prosesi gedir. Əminəm ki, bizim bugünkü layihə də Azərbaycan-Bolqarıstan ikitərəfli münasibətlərinin möhkəmlənməsinə töhfə verəcək.



# Birinci xanım Mehriban Əliyevaya Veliko Tırnovo şəhərində fəxri vətəndaş və fəxri doktor diplomları təqdim edilib



Sentyabrın 22-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya "Renascence and Constituent Assembly" (İntibah və Məclisi-Müəssisan) Muzeyində Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı və Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomlarının təqdim olunması mərasimləri keçirilib. Tədbirin aparıcısı qeyd etdi ki, Heydər Əliyev Fondunun prezidentinə Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı adı şəhərin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə verilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, şəhər ictimaiyyəti adından Azərbaycanın birinci xanımına bir daha minnətdarlığını bildirən Veliko Tırnovonun meri Daniel PANOV dedi ki, Mehriban Əliyevanın layiq görüldüyü bu ad şəhərin ən ali mükafatıdır. Daniel Panov vurğuladı ki, Azərbaycanın birinci xanımının fəxri vətəndaş seçilməsi barədə onun təklifi meriyanın 2016-cı il avqustun 25-də keçirilən təntənəli iclasında yekdilliklə qəbul edilib. Sonra Mehriban Əliyevaya Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı diplomu və döş nişanı təqdim edildi. Azərbaycanın birinci xanımı mərasimdə çıxış etdi:

-Hörmətli cənab Baş nazir.

Hörmətli cənab mer, xanımlar və cənablar, hörmətli qonaqlar.

Əvvəlcə səmimi qəbula və qonaqpərvərliyinizə görə sizə öz adımdan və bizim bütün nümayəndə heyəti adından bir daha ürəkdən təşəkkür etmək istəyirəm. Sizi milli bayramınız - Müstəqillik günü münasibətilə bir daha ürəkdən təbrik edir, sizə xoşbəxtlik, cansağlığı və sülh diləyirəm. Qədim Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı olmaq mənim üçün böyük şərəfdir. Bu fəxri ada görə dərin minnətdarlığımı, şəhərin sakinlərinə sonsuz ehtiramımı bildirirəm.

Biz - Heydər Əliyev Fondunun əməkdaşları çox qürur duyuruq ki, bolqar xalqının bu böyük milli irsinin bərpasına töhfə verə bilmişik. Burada olduğum bir neçə saat ərzində sizin hamınızın - bu şəhərin və bütün ölkənizin vətəndaşlarının öz mədəni irsinizə necə ehtiramla və məhəbbətlə yanaşdığınızı hiss etdim. Bizim ölkəmiz də öz zəngin tarixi və mədəni irsi ilə məşhurdur və bu münasibət məni dərindən təsirləndirir. Çünki tarixi və mədəni irs dövlətçiliyin və hər bir xalqın milli identikliyinin formalaşmasında çox böyük rol oynayır. Bununla bərabər, mən qəti əminəm ki, məhz humanitar əlaqələr, mədəniyyət, təhsil, incəsənət sahəsində əlaqələr insanları, xalqları, ölkələri bir-birinə yaxınlaşdıran və millətlər, ölkələr arasında anlaşmanı qat-qat əlyetərli edən universal sahədir.



Buna görə bu layihəyə cəlb edilmiş, onun gerçəkləşməsində iştirak etmiş insanların hamısına,



ilk növbədə, cənab Baş nazir, sizə dərin təşəkkürümü bildirirəm. Çünki bu layihənin həyata keçirilməsinə sizin necə böyük diqqət yetirdiyinizi bilirəm.

Mən çox şadam ki, ölkələrimiz arasında münasibətlər tarix boyu dostluq xarakteri daşıyıb, qarşılıqlı hörmətə və qarşılıqlı marağa əsaslanıb. Çoxsaylı faktlar onu da təsdiq edir ki, bizim mədəni əlaqələrimizin dərin kökləri var. Görkəmli Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin şeirləri hələ XIX əsrdə bolqar dilinə tərcümə edilib və sizin ölkədə şöhrət qazanıb. Bu gün Azərbaycanda bolqar ədəbiyyatının klassikləri İvan Vazovu, Xristo Botevi, Emiliyan Stanevi və bir çox başqalarını tanıyır, onlara sevgi və hörmət bəsləyirlər.

Çox sevindirici haldır ki, son vaxtlar ölkələrimizin ayrı-ayrı şəhərləri və regionları arasında da dinamik əməkdaşlıq müşahidə olunur. Azərbaycanın Şəki şəhəri və Bolqarıstanın Qabrova şəhəri qardaşlaşmış şəhərlərdir. Bu gün öyrəndim ki, Veliko Tırnovo və Naxçıvan da qardaşlaşmış şəhərlərdir. Əlbəttə, dərin məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, siyasi əlaqələrimiz ən yüksək səviyyədə çox uğurla inkişaf edir. Azərbaycan və Bolqarıstan prezidentlərinin qarşılıqlı səfərləri, Bolqarıstanın Baş nazirinin bizim ölkəyə səfəri əlbəttə ki, ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi işinə xidmət edir.

Bu gün Bolqarıstan ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır və ölkələrimiz çoxsaylı iri layihələrdə, o cümlədən enerji layihələrində uğurla əməkdaşlıq edir. Lakin mən bizim humanitar və mədəni əlaqələrimiz üzərində daha çox dayanmaq istəyirəm. Bakı Slavyan Universitetində 2004-cü ildən Bolqar dili və mədəniyyəti Mərkəzi fəaliyyət göstərir. Həmin universitetdə bolqar dili, tarixi və mədəniyyəti öyrənilir. 2013-cü ildə Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində Azərbaycan dili və mədəniyyəti Mərkəzi yaradılıb. Hazırda bu universitetdə "Azərbaycan multikulturalizmi" fənni tədris edilir. Bütövlükdə ölkələrimizin ali məktəbləri arasında 20-dən çox saziş bağlanıb. Bu, həm tələbə mübadiləsi, həm müxtəlif elmi konfranslar, həm də ölkələrimizin elmi ictimaiyyəti arasında əlaqələr deməkdir.

Əziz dostlar, bir daha vurğulamaq istəyirəm ki, bu cür layihələr, bu cür əməkdaşlıq, sözsüz ki, bizim ikitərəfli əlaqələrimizin möhkəmlənməsinə xidmət edir, insanlarımızı bir-birinə daha da yaxınlaşdırır. Bu layihələr həm də dost ölkələr arasında münasibətlərin necə qurula biləcəyini göstərən nümunədir. Bizim ortaq cəhətlərimiz çoxdur və mən müasir dünyada çox vacib olan multikulturalizm ideyasını xüsusi qeyd etmək istəyirəm. Azərbaycanda və Bolqarıstanda müxtəlif millətlərdən, müxtəlif dinlərdən olan insanlar sülh, həmrəylik və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Əminəm ki, bizim bugünkü layihə dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcək. Ümidvaram ki, biz bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəyik.

**Ardı-Səh-8**

# Birinci xanım Mehriban Əliyevaya Veliko Tırnovo şəhərində fəxri vətəndaş və fəxri doktor diplomları təqdim edilib



Əvvəli-Səh-7

Məni bu yüksək ad - qədim, gözəl şəhərinizin fəxri vətəndaşı adı ilə təltif etdiyinizə görə sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Sizin hamınıza möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq diləyirəm. Sağ olun.

X X X

Tədbirdə çıxış edən Bolqarıstanın Baş naziri Boyko BORİSOV qeyd etdi ki, müsəlman ölkəsi olan Azərbaycanın xristian ölkəsi Bolqarıstanda dini-mədəni abidəni bərpa etməsi bu ölkədə çox böyük rəğbətlə qarşılanıb. Heydər Əliyev Fondu bu abidəni bərpa etməklə bolqar xalqının 132 illik arzusunu reallaşdırıb.

X X X

Daha sonra Mehriban Əliyevaya Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi oldu. Universitetin ümumi yığıncağının sədri Radoslav RADEF bildirdi ki, Azərbaycanın birinci xanımı fəxri doktor adına Bolqarıstanın mədəni irsinin qorunmasına və təşviqinə böyük töhfəsinə, bu işdə fəal iştirakına görə layiq görülüb.

Universitetin rektoru Xristo BONDJOLOV dedi ki, UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatların xoşməramlı səfiri olan Mehriban Əliyeva dünyanın, o cümlədən Avropanın mədəni irsinin qorunmasına, mədəniyyətlər və dinlərarası dialoqun inkişafına böyük töhfələr verib. Rektor Heydər Əliyev Fondunun dünyada həyata keçirdiyi layihələrdən danışdı. Sonra Mehriban Əliyevaya Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru mantiyası və diplomu təqdim olundu. Onun xidmətlərini yüksək qiymətləndirdiklərinə görə minnətdarlığını bildirən Heydər Əliyev Fondunun prezidenti Mehriban ƏLİYEVA dedi:





-Hörmətli cənab rektor.

İcazə verin, mənim müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin fəxri doktoru adı ilə təltif edilməyimə görə sizə dərin təşəkkürümü bildirim. Bu, mənim üçün həqiqətən böyük şərəfdir. Mən müəllimlər ailəsində, bütün həyatlarını elmə həsr etmiş insanların ailəsində böyümüşəm. Buna görə də həyatlarını gənc nəslə elm, bilik öyrətmək işinə həsr etmiş insanlara çox dərin hörmət bəsləyirəm. Universitetin bütün professor-müəllim heyətinə mənim dərin təşəkkürümü çatdırın. Bu gün heç kəs üçün sirr deyil ki, hər hansı dövlətin uğuru onun gənc nəslinin nə dərəcədə savadlı, bilikli olması ilə müəyyən edilir. Məhz insan potensialı, elmi potensial, məhz inkişaf etmiş, savadlı gənc nəsil ölkənin gələcəkdə öz layiqli yerini tutmasına zəmanət verir. Bu biliyi, bu nuru siz müəllimlər, professorlar verirsiniz. Gənc nəslə biliklər verən, ona həyat vəsiqəsi verən sizsiniz. Mənə bu yüksək adı verməyi qərara almağınız məni dərindən təsirləndirib və bu adı müəyyən dərəcədə avans kimi qəbul edirəm. Çünki bu ada layiq olmaq üçün mən hələ çox iş görməliyəm. Sağ olun ki, mənim fəaliyyətimi bu cür yüksək qiymətləndirmisiniz. Mən əminəm ki, biz birlikdə bu sahədə, məhz təhsil sahəsində Azərbaycanın naminə, Bolqarıstanın naminə hələ çox iş görə bilərik. Qəlbinizin hərarətinə görə sizə bir daha təşəkkür edirəm. Çox mütəəssir olmuşam. Çox sağ olun.

X X X

Azərbaycanın birinci xanımı bu nüfuzlu ali təhsil ocağının Fəxri Qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonda xatirə şəkli çəkdirildi.

X X X

Sentyabrın 22-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Leyla Əliyeva Veliko Tırnovo şəhərində Bolqarıstanın milli bayramı - Müstəqillik Günü münasibətilə keçirilən işıq şousuna baxıblar. Xüsusi işıq effektləri ilə yaradılan şou atəşfəşanlıqla başa çatıb. Həmin gün Bolqarıstanın Baş naziri Boyko Borisovun adından Azərbaycanın birinci xanımının şərəfinə rəsmi ziyafət verilib.

***İqbal Hacıyev***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Veliko Tırnovo***

# Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: Məxəzlərdən oxunmuş tarix" kitabı italyan dilində çap olunub




Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: Məxəzlərdən oxunmuş tarix" kitabı İtaliyanın "Eurasian Books" nəşriyyatında italyan dilində çap olunub.

AZƏRTAC xəbər verir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərinə həsr edilən kitabda problemin yaranma səbəbləri, bu bölgənin tarixən mövcud olan Azərbaycan dövlətlərinə məxsusluğunu əks etdirən müxtəlif qiymətli mənbələr yer alıb. Bundan başqa, kitabda bölgədə ermənilərin xeyrinə həyata keçirilən demoqrafik dəyişikliklərdən, Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasından, münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə həyata keçirilən danışıqlar prosesinin vəziyyətindən, beynəlxalq təşkilatların bu məsələdə tutduğu mövqedən, xüsusilə təcavüzkar Ermənistanın BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələri yerinə yetirməməsindən, eləcə də münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan sərhədləri və ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyindən bəhs edilir. Əsərdə zəngin tarixi faktlar əsasında mühüm elmi-nəzəri ümumiləşdirmələr aparılmaqla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə mane olmaq üçün məqsədyönlü şəkildə törədilən süni əngəllərə də münasibət bildirilir. Müəllif çoxsaylı mənbələr və elmi ədəbiyyat əsasında, ilk növbədə, xarici dillərdə və erməni dilində nəşr olunmuş mənbələrdəki faktlara istinad edərək Dağlıq Qarabağın ən qədim dövrlərdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu sübuta yetirir. Bu fundamental elmi əsərin italyan dilində nəşri oxucu auditoriyasının genişlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Kitab Dağlıq Qarabağın tarixinə, münaqişənin başvermə səbəblərinə, onun doğurduğu acı nəticələrə dair obyektiv və səhih məlumatlar əldə etmək istəyən italyandilli oxucular üçün dəyərli mənbə rolunu oynayacaq.

# Baş prokuror Şirvan şəhərində vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılır, vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov sentyabrın 23-də Şirvan Şəhər Prokurorluğunun inzibati binasında Şirvan şəhərindən, Hacıqabul, Saatlı, Sabirabad və Salyan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Zakir Qaralov və Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edərək, şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 20-yə yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Eyni zamanda, prokurorluğun səlahiyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin edilib. Qəbuldan sonra baş prokuror Zakir Qaralovun sədrliyi ilə tabe prokurorların iştirakı ilə müşavirə keçirilib. Müşavirədə baş prokuror vətəndaş-məmur münasibətlərinin Prezident İlham Əliyevin tələblərinə uyğun olaraq, sağlam zəmində qurulması, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyinin və kəsərliliyinin artırılması, habelə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili ilə bağlı tövsiyə və tapşırıqlarını verib.



# "İşığa gedən yol" kitabının təqdimat mərasimi keçirilib




Dünən Mirzə Fətəli Axundov adına Milli Kitabxanada "Kaspi" qəzetinin təsisçisi, yazıçı-publisist Sona Vəliyevanın milli mətbuatımızın banisi Həsən bəy Zərdabiyə həsr etdiyi "İşığa gedən yol" romanının imza günü və təqdimat mərasimi keçirilib. SİA-nın xəbərinə görə, təqdimat mərasimindən öncə S.Vəliyeva kitabını Açıq Kitabxanada öz imzası ilə oxucularına təqdim edib. Daha sonra kitabxananın konfrans zalında davam edən tədbirdə ədəbiyyat, mədəniyyət, media nümayəndələri, Milli Məclisin deputatları iştirak edib.

Təqdimat mərasimində ilk çıxış edən Kitabxananın direktoru, professor Kərim Tahirov tədbir iştirakçılarına əsər haqqında məlumat verib. O bildirib ki, Həsən bəy Zərdabi haqqında bir çox kitablar yazılsa da onun ömür yolunu zərgər dəqiqliyi ilə araşdıran olmayıb: "Zərdabi kimi şəxsiyyətlər haqqında nə qədər belə kitablar yazılsa, bir o qədər həmin şəxsiyyətlər unudulmazlar. Müəllif iri həcmli romanla Həsən bəy Zərdabiyə heykəl qoyub".

Mədəniyyət və turizm nazirinin müavini Vaqif Əliyev tarixi şəxsiyyətlər haqqında əsər yazmağın vacibliyinə toxunub: "Hər kəs bu kitabı gözləyirdi. Sona Vəliyevanın milli mətbuatımızın banisinin ömür yolunu bu cür geniş şəkildə təsvir etməsi son illərin hadisəsi və uğurudur. Kitab həm geniş oxucular üçün nəzərdə tutulub, həm də Zərdabişünaslar, mütəxəssislər üçün dəyərli nəşrdir. Kitabın dili rəvandır, oxunaqlıdır, oxucular hadisələri çox rahatlıqla başa düşür. Hesab edirəm ki, tarixi şəxsiyyətlərimiz haqqında belə böyük romanların yazılması təşəbbüsü bundan sonra da davam etməlidir. Bu kitabı oxuyanlar həm də ö dövrün tarixini öyrənmiş olur".

Çıxış edən Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Cahangir Məmmədli bildirib ki, kitab o qədər bədii yazılıb ki, bunu yalnız şair ruhlu biri yaza bilərdi: "Müəllif əsərə sevgi ilə yanaşıb. Mən bu kitabın nəşrini böyük hadisə adlandırıram. Hadisəniz mübarək". Təqdimatın davamında söz alan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, sözügedən kitab Mətbuat Şurasının I dərəcəli "Ali Media" mükafatına layiq görülüb. Hər biir xalqın tarixində ayrı-ayrı şəxsiyyətlər böyük rol oynayır. Həsən bəy Zərdabi həmin şəxsiyyətlərdəndir. Xalqımız onlar haqqında geniş məlumata malik olmalıdırlar. Bu kitab Azərbaycan ədəbiyyatı üçün bir töhfədir. Həsən bəy Zərdabi haqqında ilk dəfədir ki, belə böyük roman yazılıb. Sona xanım öz zəhməti ilə belə bir yükü öz üzərinə götürdü və böyük zəhmət nəticəsində tarixi roman ərsəyə gəldi. Bu kitab xüsusilə mətbuat işçiləri üçün vacib əhəmiyyət kəsb edir. Roman nəinki jurnalistlərin, hər kəsin stolüstü kitabına çevrilmələdir".

Milli Məclisin deputatı Nizami Cəfərov kitabın böyük əhəmiyyət kəsb etdiyini qeyd edərək bildirib ki, Həsən bəy Zərdabi haqqında yeni əsərin yaradılması sevindirici haldır. Milli Məclisin deputatı Elmira Axundova söyləyib ki, hazırda kitab müstəqil həyatını yaşayır: "Artıq kitabla bağlı bir çox yazılar yazılıb, rəylər söylənilib. Burada təkcə Zərdabi deyil, onlarla tarixi insan canlanıb, Azərbaycanın tarixi yer alıb. Bu kitab bir ensiklopediyadır. Burada qəhrəmanın obrazı ilə müəllifin obrazı üst-üstə düşür. Kitabın rus və ingilis dillərinə tərcümə edilməsini təklif edirəm.Həttab kitabın əsasında film də çəkilə bilər".

Daha sonra "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, xalq şairi Sabir Rüstəmxanlı, tarixi pomanlar müəllifi, yazıçı Yunus Oğuz, akademik Teymur Kərimli, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid, yazıçı Akif Əli, tənqidçi Əsəd Cahangir və başqaları "İşığa gedən yol" kitabının tarixi və bədii əhəmiyyətindən danışıb, əsərin Azərbaycanın böyük şəxsiyyətlərinin və tarixinin öyrənilməsində dəyərli mənbə olduğunu diqqətə çatdırıblar. Çıxışçılar kitab əsasında bədii filmin çəkilməsi təklifini də səsləndiriblər.

Təqdimat mərasiminin sonunda çıxış edən S.Vəlieva bildirib ki, kitabın məhz Milli Kitabxanada təqdimatının onun üçün böyük dəyəri var: "Çünki, bu kitabxana mənim həyatımda çox böyük rola malikdir. Mənim universitet illərimin hər günü bu kitabxanada keçib. Tarix sübut edir ki, biz təkcə təhsil aldığımız fənləri öyrənməməliyik, daim araşdırmalı və məlumatlı olmalıyıq. Mənim Həsən bəy Zərdabiyə müraciət etməyimin səbəbləri var. Mən tarixi şəxsiyyətlərin həyatını, fəaliyyətini araşdıranda elə bilirdim ki, onların birinin övladıyam və borcum var. Həsən bəyin həyatı, yaradıcılığı mənim hər zaman diqqətimi çəkib. Düşünürəm ki, o dövrdə yaşayanların hər birinə mənəvi borcumuz, övladlıq borcumuz, azad yaşamağımızda vətəndaş, soydaş borcumuz var. Biz bu gün azad yaşamağımıza görə, belə şəxsiyyətlərə borcluyuq. Yeri gəldikdə bu borcu yerinə yetirmək iqtidarında olmalıyıq. Mən Həsən bəyin həyatını araşdıranda zərrə qədər yorulmadım. Çünki ürəyimdə ona qarşı böyük sevgi vardı".

# Siyavuş Novruzov: “Azərbaycan keçmiş postsovet və Şərqi Avropa məkanında ən azad ölkədir”



*Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun APA-ya müsahibəsi*

***- Azərbaycanda referendumun keçirilməsinə bir neçə gün qalıb. Ölkədə referendumqabağı vəziyyəti necə dəyərləndirirsiniz?***

- Vəziyyəti çox yüksək dəyərləndiririk. İlk növbədə qanunvericilik bazamız var və buna uyğun olaraq, referendumun keçirilməsi üçün tam şərait yaradılıb. Dünyanın az ölkəsində bizim kimi dairə seçki məntəqələrinə hər yerdə xüsusi binalar tikilib. O cümlədən, məntəqələrin hər biri tam hazırdır. Yerlərdə xeyli görüş keçirilib. İndiyədək YAP təşviqat qrupu 1100-dən artıq görüş keçirib və bu, qanunvericiliyin icazə verdiyi müddətə qədər davam edir. Bu görüşlər, internet, proşürlar vasitəsi ilə əhali məlumatlandırılıb. Eyni zamanda Mərkəzi Seçki Komissiyası da məlumatlandırma sahəsində tədbirlər görür. Səsverməyə çıxarılacaq hər bir maddə və dəyişiklik barədə əhali artıq xəbərdardır. Referendumla bağlı insanlar arasında xeyli ruh yüksəkliyi var. Çünki orda qoyulan məsələlər insanların xeyrinədir. Bu məsələlər insan hüquq və azadlıqlarının qorunmasının daha da möhkəmləndirilməsi, dövlət strukturunun daha da təkmilləşdirilməsi, vətəndaşların müraciətlərinə baxılması və digər bu kimi sahələri əhatə edir.

***- Referendumla bağlı müxalif düşərgədən heç bir təşviqat qrupunun qeydə alınmaması fərqli fikirlərə səbəb oldu. Bu barədə nə deyə bilərsiniz?***

- Təşviqat qruplarının yaranması üçün həm Seçki Məcəlləsində və MSK tərəfindən qəbul olunmuş təlimatlarda göstərilən müddəalara uyğun olaraq, bir dairə ərazisində təşviqat aparmaq istəyən hər hansı təşkilat və ya partiya təxminən 500 nəfəri toplamalıdır. Ölkə üzrə isə təxminən 2000-dən çox toplanmalıdır ki, belə bir təşəbbüs qrupu yaratsın. Bundan sonra təşəbbüs qrupu müvafiq sənədləri MSK-ya təqdim edir və oradan onlara imza vərəqələri verilir. Bu imza vərəqələri ümumrespublika miqyasında təşviqat qrupu yaratmaq üçün 40000-dən çox imza tələb olunur. Azərbaycanda 5 milyona yaxın seçici var. 40 min seçici 5 milyon seçicinin heç 0,1 faizi etmir. Bu qədər az imzanı belə toplaya bilməyən təşkilatın cəmiyyətdə sosial bazasının olmaması açıq görünür.

Bəzən görürsən ki, “Facebook”da, ümumiyyətlə internetdə bir yazını izləyənlərin sayı 200 minə çatır. Məsələn, hansısa müğənni haqqında yazılan xəbəri azı 40 min nəfər izləyir. Amma müxalifətin bir liderini bundan dəfələrlə az izləyirlər, bəzən heç izləyən yoxdur. Yəni müxalifətin hər hansı fikri müğənni ilə bağlı xəbər qədər belə cəmiyyətə maraqlı deyil. Onlar imza toplaya bilmirlərsə, bu, onların problemidir. Buna görə iqtidarda, cəmiyyətdə problem axtarmaq lazım deyil. Heç bir müxalif partiyada bu gün buna yetəcək elektorat yoxdur.

Müxtəlif bəhanələr gətirirlər. Guya yerlərdə onlara imkan verilməyib, şərait yaradılmayıb və sair. Bakıda nə qədər böyük binalar var və burda icra başçısı, yaxud kimsə gəlib binanın qapısında durmayıb ki, buna mane olsun. Bütün bunların hamısı bəhanədir. Vətəndaşlar bu insanları qəbul etmir, imza vermir. Xalq görür ki, bunlar xarici təşkilatlara qulluq edirlər, Azərbaycanın dövlət müstəqilliyinin əleyhinə gedirlər, ordu quruculuğuna zidd gedirlər, ölkədə ictimai-siyasi sabitliyi pozmaq istəyirlər və sair. Bu gün dünyada ən önəmli şərtlərdən biri ictimai-siyasi sabitlikdir. Ətrafımızda nələrin baş verdiyini görürük. Qardaş Türkiyədə hər gün ya əsgər şəhid olur, ya terror hadisəsi baş verir. Türkiyə 80 milyonluq ölkədir və min ildən artıq tarixi var. 500 il də imperiya olub. Yaxud xalq görür ki, bu gün yollar çəkilir, məktəblər tikilir, xəstəxanalar istifadəyə verilir və sair. Bu baxımdan da artıq xalq sözə yox, görülən əmələ dəstək verir. Məsələn, o gün mitinqdə “Azadlıq!” qışqırırlar. Biz azad deyilik? 90-cı illərin havası bunların başında qalıb. Bu gün Azərbaycan keçmiş postsovet ölkələri arasında, şərqi Avropa ölkələri arasında ən azad ölkədir. Ən müstəqil siyasət yürüdən ölkələrdən biriyik. Baxmayaraq ki, ərazisi və əhalisi o böyük dövlətlərdən azdır, onların hamısı ilə bərabər və qarşılıqlı münasibətlər yaradıb. Məsələn, bu yaxınlarda MDB-nin tədbirində cənab prezidentin Ermənistan prezidentinə verdiyi cavabı götürək. Görün, dövlətlərin qarşısında Azərbaycanın maraqlarını necə təmsil etdi. Amma görək, müxalifətdəkilərdən hansısa biri adi bir erməniyə qarşı bu cür çıxış edib? Xeyr. Yaxud, bu günlərdə Avropa Parlamenti nümayəndə heyətinə cənab prezidentin verdiyi cavabları götürək. Bütün bunların hamısının altından xalq xətt çəkir və dəstəkləyir. Fəxr edir ki, Azərbaycanın bu cür lideri var. Bilirsiniz, bir var prezident, bir də var eyni zamanda lider olmaq. Prezident İlham Əliyev bu gün həm də Azərbaycan xalqının lideridir. Azərbaycanı irəli aparır. Bütün bunlarla müqayisəyə görə həmən müxalifətin xalq arasında heç bir sosial bazası yoxdur və imza toplaya bilmir.

***- Milli Şura və Müsavat Partiyası mitinqlər keçirdi. Mitinqlə bağlı açıqlamanızda bunların qanunsuz olduğunu bildirdiniz. Halbuki aksiyalar Bakı Şəhər İcra Hakimiyyətinin razılığı ilə keçirilib. Belə çıxır ki, BŞİH qanunsuzluğa yol verib?***

- Xeyr. Burada məsələ nədən ibarətdir. Referendumla bağlı hər hansı bir aksiya keçirmək istəyirlərsə bu, Seçki Məcəlləsinin tələblərinə uyğun olmalıdır. Yəni, öncə təşviqat qrupu yaradılmalıdır. Bundan sonra istər lehinə, istərsə, əleyhinə təbliğat apara bilərlər. Bu gün isə 3 təşviqat qrupu MSK tərəfindən qeydə alınıb: “Yeni Azərbaycan”, Bələdiyyələr və bir də vətəndaş cəmiyyəti. Qalan təşkilatların təbliğat-təşviqat kampaniyası dövründə (3-24 sentyabr) referendumla bağlı hər hansı fikir irəli sürməyə ixtiyarı yoxdur. Bu, Seçki Məcəlləsinin tələbidir. İstəyirdilərsə, təşviqat qrupu yaradıb, bunu edəydilər. Bunlar nəinki yarada bilmədilər, heç yaratmağa cəhd də göstərmədilər. Çünki anlayırdılar ki, bunun üçün elektorat yoxdur.

Digər bir məsələ var ki, “Sərbəst toplaşmaq azadlığı haqqında” qanuna əsasən, istənilən partiya, təşkilat, dərnək, şura sərbəst toplaşmaq hüquqlarından istifadə edə bilər. Bunlar keçirə bilərlər. Amma bunun şərtləri var. Birincisi, orada referendumla bağlı bir kəlmə söyləyə bilməzlər, çünki təşviqat qrupu deyil. İkincisi, orada milli, irqi, dini ayrı-seçkilik salıblarsa, şəxsiyyətin şərəf və ləyaqətini təhqir ediblərsə, onda mitinq qanunsuzdur və dərhal dayandırılmalıdır. Bu, qanunun tələbidir. Bizim “Sərbəst toplaşmaq azadlığı haqqında” qanunumuz Venesiya Komissiyasının əsas sənədlərindən biridir və digər ölkələrə də tövsiyə olunub.

Təşkilatçılar mitinqlə bağlı BŞİH-ə müraciət ediblər ki, sərbəst toplaşma azadlığı ilə bağlı tədbir keçirirlər. BŞİH də bunları nəzərə alır, yer ayırır və hüquq-mühafizə orqanlarından onların təhlükəsizliyini təmin etməyi xahiş edir. Lakin bunlar vəziyyətdən sui-istifadə edərək, iki qanunu da pozublar - Həm Seçki Məcəlləsi, həm də “Sərbəst toplaşmaq azadlığı haqqında” qanunu. Mitinqlərdə bütün çıxışlarda həm referendumla bağlı fikirlər söylənildi, referendum əleyhinə çağırışlar oldu, həm də dini, milli ayrı-seçkilik salındı və dövlət nümayəndələrinə qarşı təhqirlər səsləndirildi. Buna görə də mütləq hüquq-mühafizə orqanları mitinqə imza ataraq cavabdeh olan şəxsləri məsuliyyətə cəlb etməlidir. Bunu etməlidirlər, çünki qanunun tələbidir.

Bundan başqa, mitinqlərdə bunlar qarşı durma yaratmaq istəyirdilər. Yəni bu cür qadağan olunmuş ifadələri işlədəndə hüquq mühafizə orqanları gərək mitinqi dağıdaydı. Amma hüquq mühafizə orqanları çox böyük səbir nümayiş etdirdi. Dağıtmadılar. Çünki müdaxilə etsəydi qarşı durma yaranacaqdı və mitinqin təşkilatçılarının da istəyi elə bu idi. Avropaya, ayrı-ayrı təşkilatlara müraciət etsinlər ki, Azərbaycanda sərbəst toplaşmaq azadlığı pozulur. Hətta onlar çalışırdılar ki, orada ölüm hadisəsi də olsun. Bunlara belə daha çox sərf edir. Nə qədər çox qan tökülsə bunlar üçün bir o qədər uğurdur. Amma hüquq mühafizə orqanları çox səbir nümayiş etdirərək buna imkan vermədilər. Amma onların o mitinqdəki çağırışları bir başa qanun pozuntusu idi və cinayət məsuliyyəti yaradır.

***- Milli Şuranın mitinqində dindarların da iştirakı müşahidə olundu və bu, birmənalı qarşılanmadı. Bu barədə nə deyə bilərsiniz ?***

- Bu barədə Qafqaz Müsəlmanları İdarəsi(QMİ), Dini Komitə ilə birgə bu sahə üzrə MM-in komitəsi kimi biz də bəyan edirik ki, dinlə bağlı heç bir problem yoxdur. Bütün din icmaları azad fəaliyyət göstərməsi üçün “Dini etiqad azadlığı haqqında” qanun var. Qanunun tələblərinə uyğun olaraq, rəsmi qeydiyyatdan keçmiş bütün dini icmalar fəaliyyət göstərə bilər. Azərbaycanda qeydiyyatdan keçmiş 3 minə qədər dini icma var. 2 mindən çox məscid fəaliyyət göstərir. İstər, ulu öndər Heydər Əliyev tərəfindən, istər hazırda cənab prezident İlham Əliyev tərəfindən, istərsə də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım tərəfindən bütün ibadətgahlar, ziyarətgahlar, dini abidələr qorunur, təmir olunur, saxlanılır. Qafqazın ən böyük məscidi - Heydər məscidi məhz Azərbaycandadır. Məsələn, dindarlar qəsəbəsi kimi götürsək, təkcə Nardarana prezidentin ehtiyat fondundan 20 milyon manatdan çox pul ayrılıb. Bu, bir rayonun büdcəsi deməkdir. Yəni dinə diqqət böyükdür. Bir də var dini ekstremizm. Bu nədir? Bununla bağlı “Dini ekstremizmə qarşı mübarizə haqqında” qanunumuz da var. Bunlar müxtəlif ölkələrin təsirinə düşən, din adı altında Azərbaycanın dövlət quruluşunu, Konstitusiyanı dəyişməyə və yeni dini quruluş yaratmağa cəhd edən qüvvələrdir. Məhz o mitinqdə də o cür düşünən və cinayət məsuliyyətinə cəlb olunan insanların qohum-əqrəbası iştirak edirdi. Azərbaycanın dövlət quruluşu Konstitusiyamız ilə müəyyənləşib, unitar, dünyəvi dövlətdir. Dövlətdən ayrı olmağına baxmayaraq, həmişə dinə ciddi şəkildə diqqət və qayğı göstərilib.

Xaricdə təhsil alanlar, oranın kəşfiyyat orqanları ilə təmasda olanlar, təsir altına düşənlər və bir də ayrı-ayrı silahlı birləşmələrdə din adı altında vuruşanlar var. Oraya da toplaşanlar bunların ətrafı idi. Mitinqə kənardan bir də baxaq: bu tərəfdə şüar yazır ki, Avropa Birliyi ilə müqavilə imzalanmalıdır, Avropaya girməliyik, o biri tərəfdə də “Allahu əkbər!” qışqırırlar, şüar qaldırırlar. Deməli bunlarda məqsəd odur ki, kim olur olsun, ora toplamalıdırlar, təki dövlətin əleyhinə olsun. Yəni əqidə birliyindən, partiya silahdaşlığından söhbət gedə bilməz.

***- Müsavat Partiyası və Milli Şura birgə mitinq keçirməyə qərar versə də, bu baş tutmadı...***

- Bu dəqiqə bir-birlərinə qarşı təhqir yağıdır, bir-birlərini bəyənmir. Aralarında yarış gedir. Yarış nədən ibarətdir? Xarici təşkilatlara göstərmək istəyirlər ki, daha çox müxalifətdir. Bu da sadə məsələ deyil. Bunun hamısının arxasında pul dayanır. Yəni hansı təşkilatdan kim daha çox pul alacaq. Dava yorğan davasıdır. Erməni lobbisi, xaricdən dəstəklənən dini ekstremistlər, FETÖ-cülər və digərləri Azərbaycanda ictimai sabitliyi pozmaq üçün vəsait ayırır. Bunlar bu vəsaitin üstündə dalaşırlar. İndi də görünür ki, pulu bölmək üçün razılaşa bilmədilər və birlikləri alınmadı.

Ümumiyyətlə, Müsavat ilə AXCP arasında heç vaxt birlik olmayıb və olmayacaq. Vaxtı ilə Əbülfəz Elçibəy xahiş elədi ki, onu vahid namizəd kimi qəbul eləsinlər, Müsavatın o vaxtki başqanı İsa Qəmbər imtina elədi. Amma indi deyirlər, “Elçibəy atamızdı, Elçibəy liderimizdir, yolumuz ELçibəy yoludur” və sair. Yəni bunlarda daxili iddia, hakimiyyət hərisliyi, vəzifə hərisliyi o qədər çoxdur ki, bunlar heç vaxt birgə ola bilməyəcək.

Ardı-Səh-11

# Siyavuş Novruzov: “Azərbaycan keçmiş postsovet və Şərqi Avropa məkanında ən azad ölkədir”

Əvvəli-Səh-10

***- Konkret kimlərdir və yaxud hansı ölkələrdir onları maliyyələşdirənlər?***

- Əsasən ölkələrdir. Ad çəkməyəcəyəm, ona görə ki, o ölkələr ilə rəsmi münasibətlərə hörmət etməliyəm. Amma biləsiniz ki, digər yerlərdə dini ekstremistlərdən istifadə edənlər burda da maliyyələşdirirlər.

***- YAP referendumla bağlı mitinqlər keçirməməsinin səbəbi nədir?***

- YAP referendumla bağlı görüşlər, açıq və qapalı tədbirlər keçirir. Bizim ən xırda görüşlərimizdə belə müxalifətin toplaşıb bir yerdə yığdıqları adamlardan iki dəfə çox adam olur. Adi bir rayonda, hətta onların ölkə üzrə yığdığından daha çox adam yığırıq. Bakının rayonlarında, Gəncədə mütəmadi tədbirlər keçirilir. Hazırda şimal bölgəsində davam edir. Hər bölgədə belə görüşlər olur. Bölgələrdən o insanları yığıb toplamaqdansa, biz onların yanına gedirik, izah edirik. Məsələn, müxalifətin mitinq keçirdiyi yer Yasamal rayonu ərazisindədir. Orda 24 min üzvümüz var. Ailə üzvlərini saysaq, onların ölkə üzrə yığdığından 10 dəfə çox edər.

***- Yasamal demişkən, partiyanızın o rayon üzrə təşkilat sədri, Bakı Metropoliteninin sabiq sədri Tağı Əhmədovun adı mətbuatda “keçmiş MTN işi” istintaqı ilə bağlı hallandı. T. Əhmədova qarşı hazırda həbsdə olan keçmiş MTN generalı Akif Çovdarov tərəfindən ittihamlar səsləndirilir.***

- Bu, hüquq-mühafizə orqanlarının işidir. Hüquq-mühafizə orqanları bunu sübuta yetirsə və ittihamlarla bağlı məsuliyyətə cəlb etmə olsa, o zaman partiya həmin şəxslə bağlı addım atacaq. Çox adam haqqında çox ittiham səsləndirilirlər. Konkret qərar olsa, buna uyğun olaraq, Tağı Əhmədovla bağlı qərar verəcəyik.

***- Azərbaycan prezidentinin Bakıda səfərdə olan Avropa Parlamentinin nümayəndə heyəti ilə görüşündə dedikləri ictimaiyyətdə geniş maraqla qarşılandı. Sizcə, bundan sonra Avropa Parlamentinin Azərbaycana münasibətində hansı dəyişikliklər olacaq?***

- Hesab edirəm ki, addımları artıq Avropa parlamenti atmalıdır. Cənab prezident o qədər konkret, dəqiq, düzgün danışdı və onların ədalətsiz addımları nümayəndə heyətini elə fakt qarşısında qoydu ki, yer ayrılmalı idi, xəcalətdən yerə girsinlər. Çünki bu qədər ədalətsizlik, Azərbaycana qarşı bu qədər kin olmaz. Məsələn, bütün Azərbaycan şahiddir ki, jurnalist Rasim Əliyevin öldürülməsi hadisəsinə dövlət necə diqqətlə yanaşdı. Bu hadisəyə görə 7 nəfərə 70 ildən çox həbs cəzası verilib. Məhkəmə də çox açıq keçdi. Yaxud Azərbaycanda ATƏT-in ofisinin bağlanması ilə əlaqədar baş verənlər. Bütün bunları cənab prezident bir-bir onlara sadaladı. İndi onlar bu sadalanan faktlara görə etdikləri ədalətsizlikdən nəticə çıxarmalıdırlar. 20 ildən çoxdur ki, Freedom House və digər bu qəbildən olanlar Azərbaycanla bağlı eyni şeyi deyirlər. Çevir tatı, vur tatı. O tərəfdə bəyan edir ki, Əfqanıstanda demokratik seçkilər keçirilib. Əfqanıstanda parlamentin 90 faizi heç yazıb oxumağı bacarmır. Amma Azərbaycana əksini deyirlər. Baxmayaraq ki, Azərbaycan nəinki indi, 100 il əvvəl şərqdə ilk respublikanı, operanı yaradıb. Azərbaycanda hazırda əhalinin tam əksəriyyəti təhsilli, ali təhsillidir. Bu qədər ədalətsiz müqayisə olmaz ki, onlar edirlər. Təbii ki, Azərbaycanın sərvətlərini mənimsəmək, nəsə əldə etmək istəyirlər.

Ötən il bizdə Avropa oyunları, bu il Braziliyada Olimpiada keçirildi. Bizdəki təşkilatlanma, oyunlar zamanı təhlükəsizliyə fikir verin, bu il Braziliyada baş verənlərə baxın. Braziliyada küçədə soyulmayan, döyülməyən turist qalmadı. Hətta bizdə keçirilən Avropa Oyunlarının təşkilatçılıq səviyyəsi dünyada nümunə kimi götürüldü. Amma Avropa Parlamenti belə bir oyunları keçirdiyimiz zaman götürüb bir qərar qəbul elədi ki, Azərbaycana heç kim getməsin. Birincisi, BMT-nin müvafiq qətnaməsi var ki, idman siyasətdən ayrıdır. İkincisi, gəlin iştirak edin, baxın, görün. Axı bu, idmandır. İdman sülh yaradır, ayrı-seçkilik yox.

Xatırlayırsınızsa, Böyük Vətən müharibəsi zamanı Ukrayna SSR-nin “Dinamo - Kiyev” futbol klubunun üzvlərini almanlar əsir götürmüşdü. Almanlar öz klublarının onlarla yoldaşlıq görüşünü təşkil edib, oyun zamanı müharibəni bir kənara qoydular. O hara, Azərbaycana oyunlar zamanı göstərilən münasibət hara? Ötən il Avropa Parlamentində də bu qərarın verilməsinə kim rəhbərlik etdi? Milliyətcə alman olan Şults! Buna deyən lazımdır ki, sən get öz dövlətçilik tarixinə bax, sonra gəl bizlə ədalətdən dəm vur. Sənin dövlətin Almaniya bəşəriyyətinə başına iki dünya müharibəsini gətirib. Holokost kimi soyqırımına “imza atıb”. 40 milyondan çox insanın qanı onların əlinə bulaşıb. Onlardan biri də elə mənim babamdır. Öldürdülər, qəbrini də tapa bilmədik ki, gedib bir gül qoyam. Buna görə almanlardan çox yanıqlıyam! Və yaxud, Türkiyəni 1915-ci ildə guya ermənilərə qarşı soyqırımı törətməkdə ittiham edirlər. Bunlar unudurlar ki, həmin vaxt Almaniya Türkiyə ilə müttəfiq idi və əgər elə soyqırımı olubsa, deməli burada Almaniyanın da əli var. İndi bu dövlət bizə haqq-ədalətdən dərs keçir. Bilirsiniz, hər şeyə ədalətli yanaşmaq lazımdır.

***- Milli Məclisdə rəhbərlik etdiyiniz komitənin gündəmində ötən sessiya dini etiqadla bağlı qanuna edilən dəyişiklikdən irəli gələrək dini ekstremizmə qarşı mübarizə, ictimai yerlərdə dini təbliğat və əcnəbilərin dini təbliğatı ilə bağlı Cinayət və İnzibati Xətalar məcəllələrinə sanksiyaların əlavə edilməsi var. Bu, nə vaxt müzakirəyə çıxarılacaq? Bəzi hallarda bunun əleyhinə fikirlər səslənir...***

- Payız sessiyasında bunu müzakirəyə çıxarıb, qəbul edəcəyik. Bu, olmalıdır, çünki ötən il qanuna dəyişiklik edilib və ondan irəli gələrək sanksiyalar müəyyənləşməlidir. Bir məsələyə aydınlıq gətirim ki, qanun geriyə şamil olunmur. Çoxu qorxur ki, xaricdə təhsil alıb gəlib və qanun qüvvəyə minib deyə, problem yaranacaq. Xeyr. Bu sanksiyalar qüvvəyə minəndən sonra gələcəkdə kim xaricdə təhsil alacaqsa və yaxud digər əməlləri edəcəksə, ona tətbiq olunacaq. Bu dəyişikliyi niyə etdik, çünki xeyli səbəb yaranmışdı.

Əvvəla, xaricdə dini təhsil alanlar orada 7-8 il qalırlar. Din mövzusunun həssaslığını nəzərə alsaq, bu müddətdə həmin şəxsin dünyagörüşü, düşüncəsi tamam dəyişir, həmin ölkənin baxışlarına uyğun formalaşır. İkincisi, illərdir Azərbaycanda formalaşmış dini etiqada haradansa gəlmiş yeni yanaşmalar tətbiq olunmur, tətbiq etmək alınmır. Üçüncüsü, dünyada biri demokratiya adı altında, biri din adı altında öz agenturasını yaradır, yerləşdirir. İstəmirik ki, bu cür hallar Azərbaycanda kök atsın. İstəmirik ki, Azərbaycanda ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş ictimai siyasi sabitlik pozulsun. Məsələn, qardaş Türkiyədə iyulun 15-də bunun nümunəsini gördük. Həmin FETÖ-çülər din adı altında hansı addımları atdılar. Başqa ölkələrdə dini zəmində baş verən qarşıdurmaları misal göstərmək olar. Məsələn, vaxtı ilə dünyanın harada qulduru, oğrusu vardı din adı altında Rusiyada Şimali Qafqaz bölgəsinə yığışıb, silahlı dəstələr yaratmışdı. Nəyə görə vətəndaşımız Azərbaycanda təhsil almasın, haradasa təhsil alıb gəlsin, oranın psixologiyasını tətbiq etsin. Elə özümüz o təhsili verək də...

***- Azərbaycanda dini təhsili tam olaraq verə biləcək baza var?***

- Deyərdim ki, var. Bakı İslam Universiteti var, Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi var. Bundan başqa, şərqşünaslıq fakültəsini bitirən də bu tədrisi apara bilər. Adi orta məktəb müəlliminin dini biliklərini bir az artırsaq, o da bu ritualı həyata keçirə bilər. Baza var.

***- Ümumiyyətlə, Azərbaycanda dini kəsimlə bağlı narahatlıq nədən ibarətdir ?***

- Narahatlıq tək Azərbaycanda deyil. Daha doğrusu, kənardan, müxtəlif yerlərdən qidalanır. Məsələn, günün günorta çağı ən müasir silahlarla 60 minlik İŞİD ordusu ortaya çıxdı. İŞİD-i araşdırsaq, bu ordunun cəmi 20 faizi müsəlmandır. Ordunun düz 10 min nəfəri təkcə Avropa Birliyinə daxil olan ölkələrdəndir. Xeyli hissəsi Amerika qitəsi ölkələrindən gəlib. Bir hissəsi də vaxtı ilə Yaxın Şərqdə əməliyyat aparan ABŞ ordusunun keçmiş hərbçiləridir. Amma adını “İslam ordusu” qoyublar. Azərbaycanda təxminən 750-1100 arası adam orada ayrı-ayrı silahlı birləşmələrə qoşulub. Ya Əsəd, ya əks tərəfdən vuruşur, ya da İŞİD-in tərkibindədir. Onlar Azərbaycana qayıdanda həmin psixologiyanı özləri ilə gətirirlər. Burda həmin qruplaşmanı yaratmağa cəhd edirlər. Mən müharibə veteranıyam. Bilirəm, döyüş nə deməkdir. Araşdırma aparmışam. Ora gedənlərin heç biri əsgərlikdə olmayıb, silah görməyib. O zaman bunu aparan səbəb nədir? Məlum oldu ki, səbəb pula şirnikləndirmə, talan edilmiş qənimətlər və sair. Bəziləri də kölə edilmiş qadınların fikri ilə gedib. Bunlar hansı psixologiya ilə qayıdırlar? Fəaliyyətlərini davam etdirib, ətrafına adamlar yığacaqlar. Təhlilləri aparıb gördük ki, nə qədər qorxulu tendensiya ilə üz-üzəyik. Ona görə də bunun qarşısını almaq üçün qanunvericilikdə məlum dəyişikliyi edirik, hətta vətəndaşlıqda çıxarmaya qədər gedirik.

***- Azərbaycandan bu il Həcc ziyarətinə 1050 nəfər zəvvarın getdiyi açıqlanıb. Bu ziyarətlər bağlı fərqli fikirlər səslənir. Bunların içərisində daha çox ziyarətin təşkilinə yalnız QMİ-nin nəzarət etməsi və sərbəst təşkilatlanma mexanizminin olmaması, qiymətlərin bahalığı, imkanlı və tanınmış şəxslərin təkrar ziyarətə getməsi və sair məsələlər var. Sizcə bu missiyada yeni mexanizmin tətbiq olunması lazımdırmı?***

- Birincisi bunun mexanizmi elə dinin özündə var. Həccə o insan getməlidir ki, buna tam hazır olsun. Amma hazırda ora turist kimi gedən də var, kiminsə pul verib göndərdikləri də. Həcc hər bir müsəlmanın istəyidir. Müsəlmanın iki vətəni var. Bir doğulduğu yer, bir də Məkkədir. Təəssüf ki, Həclə bağlı qaydalar bizdə düzgün yerinə yetirilmir. Çünki hər şeydən əvvəl Həccə hər kəs öz vəsaiti hesabına getməlidir. Amma bizdə biri bankdan pul oğurlayır və onunla Həccə gedir, yaxud o pulla kimisə Həccə göndərir. Kiminsə boğazından kəsib, kimisə Həccə göndərir. Bu, nə dərəcədə düzgündür? Çox adam tanıyıram ki, Həcdən qayıdandan sonra heç bir əməli yerinə yetirmir.

Mən xatırlayıram, o vaxt mummilli lider Heydər Əliyevə Səudiyyə Ərəbistanı Kralı 300 yer vermişdi. Ondan 30 yer partiyamıza ayırdı. Bizə tapşırdı ki, partiyadan mömin olan, imkanı olmayanı göndərək. Onu o vaxt partiyada mən müəyyənləşdirirdim. Həmin vaxt o qədər adam mömin çıxdı ki, seçim etmək çətin oldu. Amma biz axtardıq, seçdik, elə adamları göndərdik ki, həm imkanı yoxdur, həm də həqiqi mömin kimi gedir və gələndən sonra ritualları yerinə yetirəcək.

Mən düşünürəm ki, bu işin təşkili ilə elə QMİ məşğul olmalıdır. Çünki başqa cür olsa, hərc-mərclik yaranacaq. Qiymətlərə gəldikdə bu insanların özündən asılıdır. Yaxşı şərait seçmək istəyəndə, onun öz qiyməti olur.

***- Siz özünüz Həccə getmək barədə düşünürsünüz?***

- Həccə getmək mənim ən böyük arzumdur. Amma hələ buna hazır deyiləm. Oruc tuturam, başqa müəyyən dini ritualları yerinə yetirirəm. Amma Həccə getməyə hələ hazır deyiləm...

## “Qərb və ABŞ problemlərin içində çabalayır”

**“ABŞ və Qərbin Azərbaycana qarşı bu dəfə həyata keçirməyə çalışdığı kampaniyanın heç bir nəticəsi olmadı. Çünki Azərbaycan artıq əvvəlki Azərbaycan deyil. Ölkəmizin mövqeləri kifayət qədər möhkəmlənib”. Bunu SİA-ya açıqlamasında millət vəkili, politoloq Rasim Musabəyov deyib.**

O bildirib ki, həmin dairələrin bu dəfə ölkəmizin əleyhinə aparmağa çalışdığı qaragüruhçuluq kampaniya şəklini də almadı: “Biz əvvəllər bundan daha sərt kampaniyalarla qarşılaşmışdıq. Avropa Oyunları, “Avroviziya” mahnı müsabiqəsi ərəfəsində bu kampaniyaları daha da fəallaşdırdılar. İndi hansısa qəzetdə çıxan iki məqalə, heç bir diqqət cəlb etməyən dinləmə Azərbaycan hökumətini seçdiyi yoldan döndərə bilməz”. R.Musabəyov hesab edir ki, buna səbəb həm ölkəmizin mövqeyinin güclənməsi, həm də həmin ölkələrini özündə kifayət qədər problemlərin olmasıdır: “İndi Amerikanın başı öz seçkilərinə qarışıb, Avropa Brexit, miqrant, maliyyə məsələləri ilə daha çox məşğuldur. Digər tərəfdən, Qərb, ABŞ özü problemlərin içində çabalayır. Ona görə də bu ölkələrdə ictimai rəyi Azərbaycana yönəltmək qeyri-mümkündür. ABŞ-da iki qara dərilinin öldürülməsi ilə bağlı hamıya məlum olan kifayət qədər problemlər baş verir. İndi bunun fonunda durub Azərbaycanda insan haqları ilə bağlı məsələ qaldırıb buna diqqəti cəlb etməyə çalışmaq mümkün deyil. Gözlərinin önündə o qədər problemlər olduğu halda, Azərbaycanı hansısa məsələlərə görə tənqid edə bilməzlər”.

# Bəhruz Quliyev: "Azərbaycan təhdid və təzyiq dili ilə danışmağı qəbul etmir"



***"Azərbaycanın 20 ildən artıq müddət ərzində stabil inkişaf erasına daxil olması, dünyanın müxtəlif istiqamətli təhlükəsizlik məsələlərində söz sahibinə çevrilməsi, transmilli layihələrin təşəbbüskarı və reallaşdırıcısı kimi aparıcı rol alması beynəlxalq münasibətlər sistemində diktat rolunu almaq və milli dövlətləri əzmək niyyətində olan bir sıra imperialist baxışlı siyasi dairələri narahat edir". Bunu Trend-ə açıqlamasında "Səs" qəzetinin Baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.***

B.Quliyev bildirib ki, ABŞ-da və Qərbi Avropa ölkələrində erməni lobbisinin təsiri altında olan bəzi siyasi dairələr Azərbaycanın uğurlarına kölgə salmaq cəhdlərini artırmaqdadırlar. Belə ki, ölkəmizin inkişaf və tərəqqi amili üzərindəki yüksəlişi sözügedən dairələrin qaranlıq maraqlarına cavab vermir, ölkəmizi idarə etmək niyyətində olan qüvvələrə sərf etmir: "Əlbəttə ki, bütün bunlar başda ABŞ olmaqla Qərb dünyasının Azərbaycanın hərtərəfli inkişafına, müstəqil siyasət yürütməsinə olan qısqanclıq münasibətindən irəli gəlir. Ümumiyyətlə, ölkəmiz hər hansı bir əhəmiyyətli ictimai-siyasi hadisə ərəfəsində olarkən, biz onların fəallıqlarını hiss edirik. Bu gün də eyni hal yaşanır. Bilirsiniz ki, Azərbaycan növbəti ümumxalq səsverməsi ərəfəsindədir. Ölkədə siyasi əhvali-ruhiyyə yüksəkdir, insanların böyük əksəriyyəti artıq Referendum Aktını dəstəklədiyini və sentyabrın 26-da onun lehinə səs verəcəklərini bildirirlər. Əlbəttə ki, bu fakt Azərbaycanda sosioloji sorğu keçirmiş xarici təşkilatların hesabatlarında da öz əksini tapıb. Lakin bununla barışmaq istəməyən antiazərbaycan dairələri müxtəlif formalarda, simalarda ölkəmizə təzyiq etmək, dünya ictimaiyyətini çaşdırmaq istəyir, o cümlədən, ölkəmizdə mövcud olan, eləcə də möhkəm təməllərə əsaslanan ictimai-siyasi sabitliyə hər vəchlə manеə yaratmağa çalışırlar. Çünki onlar yaxşı bilirlər ki, referenduma çıxarılan məsələlər birbaşa Azərbaycan dövlətinin möhkəmlənməsinə, xalqımızın rifahının daha da yüksəlməsinə xidmət edir və xalq tərəfindən dəstəkləndikdən sonra yenilənmiş Konstitusiya Azərbaycanın müstəqil, praqmatik və rasional siyasətini daha da effektli edəcək. Bununla da, həm Azərbaycan vətəndaşlarının hüquqlarının daha etibarlı qorunması, sosial-iqtisadi islahatların qarşısıalınmaz proses kimi davam etdirilməsi, təhlükəsizliyimizin daha etibarlı təşkil olunması və s. baş tutacaq. Onlar məhz tərəqqimizi inkişafımızı istəmirlər və maraqlısı da budur ki, daha öncələr bu əməllərini gizlətməyə çalışırdılar, indi isə aşkar qaydada hərəkətə keçirlər. Məqsəd bəllidir: Azərbaycanda siyasi böhran yaratmaq. Bu isə yolverilməz bir haldır".

Siyasi ekspert vurğulayıb ki, xüsusilə son bir neçə həftə ərzində Azərbaycana qarşı total hücumların olması müşahidə edilməkdədir: "Avropa Şurasının Venesiya Komissiyasının qərəz dolu rəyindən dərhal sonra BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forstun qurumun reallıqdan kənar, siyasi sifarişli hesabatını açıqlaması, eyni zamanda ABŞ-dakı bəzi "beyin mərkəzləri"nin Azərbaycanı hədəfə alması onu göstərir ki, ölkəmizə qarşı total hücumlar var. Aydın şəkildə görürük ki, bütün bunlar bir mərkəzdən idarə olunan prosesin tərkib hissəsidir və referendumla bağlı Azərbaycan hakimiyyətinin siyasi mövqeyinə, xalqın iradəsinə təsir göstərmək məqsədi daşıyan aşkar sifarişli kampaniyadır".

B.Quliyev bildirib ki, onların cəhdlərinə baxmayaraq, antiazərbaycan dairələrinin hücumları bütün mənalarda nəticəsiz qalacaq. Çünki demokratik və hüquqi ölkə olan Azərbaycan xalq-hakimiyyət birliyi mövcuddur: "Vətəndaş-dövlət, daha dəqiqi isə xalq-iqtidar vəhdəti kontekstindəki münasibətlərin hakim olduğu siyasi sistemlərdə "suyu bulandırmaq" əslə mümkün deyil. O cümlədən, Azərbaycan təhdid və təzyiq dili ilə danışmağı qəbul etmir və bu barədə ölkə başçımız, Prezident İlham Əliyev cənabları demək olar ki, hər bir çıxışında bəyan edir. Dövlət rəhbərimiz vurğulayır ki, müstəqil, qətiyyətli və möhkəm təməllərə əsaslanmış siyasət yürüdən Azərbaycanla heç bir qüvvə təhdid dilində danışa bilməz.

Bu baxımdan, sözügedən qüvvələrin cəhdləri mənasızdır. Yaxşı olardı ki, başda ABŞ olmaqla Qərb dünyası daxillərindəki çoxsaylı irqçilik, ksenofobiya, islamofobiya, onları ifşa edən media mənsublarının təqib olunması və s. problemlərə diqqət ayırsınlar. İslamofobiyanı, etnik-irqi diskriminasiyanı, insan hüquqlarının kobud və sistemli şəkildə pozulmasını, digər ölkələrin daxili işlərinə qarışmaları fonunda siyasi korrupsiyanı həyat normasına çevirən Qərb ölkələri tolerantlıq, multikulturalizm nümunəsini elə Azərbaycandan öyrənə bilərlər. Bu gün belə qüvvələr dərk etməlidirlər ki, Azərbaycan heç də çirkin oyunlar məkanı deyil, inkişaf, sivilizasiyalararası dialoq və transmilli əməkdaşlıq məkrəzidir".

# Politoloq: "BMT-nin insan hüquqları komissiyası qaçqınların hüquqlarından danışmalı idi"



"BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forst qurumun Azərbaycanla bağlı hesabatında ilk növbədə Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkünün hüquqlarının pozulmasını ümumiləşdirib onun haqqında bəyanat yaymalı idi". Bunu SİA-ya politoloq Qabil Hüseynli deyib. Politoloqun sözlərinə görə, BMT-nin insan hüquqları komissiyası Suriyada, Azərbaycanda, eləcə də başqa-başqa ölkələrdə olan qaçqınqınların hüquqlarını diqqətdə saxlamalıdır: "Ümumiyyətlə BMT Azərbaycana münasibətdə həmişə obyektiv mövqe tutmağa çalışsa da son zamanlar onun da mövqeyində qərəz var. Görünür, müəyyən dairələr bu məsələlərdə maraqlıdırlar. Amma buna baxmayaraq, BMT ilə Azərbaycanın münasibətləri normal müstəvidə davam edir". O əlavə edib ki, Venesiya komissiyasının da Azərbaycanla bağlı neqativ rəy formalaşdırması siyasi sifarişdən xəbər verir: "Onların fikirləri bizlər üçün önəmli deyil. Azərbaycan öz qanunlarını təkmilləşdirir və inkişaf etdirir".

# Hikmət Babaoğlu: "Qərb imperializmi bütün şəbəkəsi ilə ölkəmizə hücuma keçib"

***"Bu gün ABŞ və Qərbdən müsəlman şərqinə destabillik və hibrid müharibələr ixrac edilir". Bunu apa-ya açıqlamasında millət vəkili, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.***



H.Babaoğlu hazırda beynəlxalq münasibətlər sistemində təkqütblü hegemoniya mövcud olduğunu söyləyib: "Ona görə də cərəyan edən hərbi-siyasi proseslər yalnız bir tərəfin maraqlarına xidmət edir. Əks qütbdə mövcud olan dövlətlər xüsusi layihələrlə ya dağıdılır, ya da öz milli maraqlarından geri çəkilməyə məcbur edilir. Milli dövlətləri dağıdan bu hərbi-siyasi layihələr və hibrid müharibə planları Qərbin islamofob və imperialist mərkəzlərində hazırlanır və həyata keçirilir. Təəssüf ki, həmin planları həyata keçirərkən Qərb imperializmi qlobal dəyərlərlə manipulyasiya edərək milli dövlətlərin insan resurslarını da vətəndaşı olduğu ölkəni dağıtmağa cəlb edə bilir. Bunun üçün tətbiq olunan strategiya isə insan hüquqları, demokratiya, dini etiqad azadlığı və bu kimi dəyərləri silaha çevirərək milli dövlətlərə qarşı istifadə etməkdir".

Millət vəkili qeyd edib ki, uzun illədir ABŞ və Qərb müxtəlif beynəlxalq və regional təşkilatlar, insan hüquqlarını müdafiə təşkilatları adı altında imperializmə xidmət edən xüsusi şəbəkə formalaşdırıb: "Hər hansı bir ölkə imperializmin istismarçı siyasətinə azacıq etiraz etsə, dərhal həmin təşkilatlar o ölkəyə total hücuma keçir, onu insan hüquqlarını və azadlıqlarını boğmaqda ittiham edirlər. Məhz bu effektiv hərbi-siyasi strategiya sayəsində bu gün Qərb imperializmi müsəlman şərqinin klassik dövlətlərini işğal edib, onların bütün sərvətlərini talayıb. İndi isə bu istismarçı və dağıdıcı layihəni Avrasiyanın içərilərinə doğru irəlilətməyə çalışırlar. Əslində isə ABŞ və Qərbin silah kimi istifadə etdiyi dəyərlər, yəni insan hüquq və azadlıqları elə ən çox da ABŞ və Qərbdə pozulur. Dini, irqi diskriminasiyaya, ksenofobiyaya, islamofobiyaya elə ən çox Qərbdə yol verilir. Təsadüfi deyil ki, təkcə 2016-cı ildə irqi fərqlilik zəminində ABŞ-da polis tərəfindən 168 nəfər qətlə yetirilib. Onların tək günahı dərilərinin rənginin qara olmasıdır. Avropada müsəlmanlara qarşı ən qəddar cinayətlər adi hal alıb".

H. Babaoğlu bildirib ki, Azərbaycanda milli təhlükəsizliyin daha etibarlı təminatı, inkişafın keyfiyyətcə yeni mərhələyə daşınması üçün referendum keçirilməsi planlaşdırılıb: "Bundan narahat olan Qərb imperializmi özünün struktur vahidi kimi formalaşdırdığı bütün şəbəkəsi ilə ölkəmizə qarşı hücuma keçib. Bu şəbəkəyə təlimat verdiyi radikal müxalif qruplar da daxil, çoxsaylı yerli və xarici "vətəndaş cəmiyyəti institutları", "insan hüquqları müdafiəçiləri" aiddir. Ancaq əlbəttə ki, bu proseslərin hamısı Azərbaycan xalqının gözləri önündə baş verir və xalqımız nəyin baş verdiyini şüurlu şəkildə anlayır. Ona görə də imperialist mərkəzlərin dağıdıcı planı Azərbaycanda heç vaxt baş tutmayacaq".

# "Venesiya Komissiyasının rəyi anti-azərbaycan qüvvələrin sifarişdir"



"Venesiya Komissiyasının "Azərbaycan Respublikasının Konstitutsiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsinə dair açıqladığı ilkin rəy göstərir ki, həmişə olduğu kimi, Azərbaycanı istəməyən qüvvələr Azərbaycanda həyata keçrilən mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən hadisələr ərəfəsində öz məkrli niyyətlərini həyata keçirtmək üçün hərəkətə keçirlər". BunuSİA-ya açıqlamasında Milli Məclisin deputatı, Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini Rauf Əliyev deyib.

Millət vəkili bildirib ki, qaydalara görə Azərbaycanla bağlı hər hansı bir qanun layihəsinə dair ilkin rəy hazırlanarkən Azərbaycan tərəfinin fikirləri, arqumentləri öyrənilir və yanlız bundan sonra həmin rəy dərc edilir: "Lakin referendumla bağlı rəy hazırlanarkən bu prosedur qaydaları kobud surətdə pozulmuşdur. Rəydə qeyd olunur ki, Konstitusiyaya 29 düzəlişdən ibarət referendum aktının müzakirəsi üçün iki ay kifayət deyil. Ancaq necə olur ki, Komissiya 2 həftə ərzində 29 düzəlişə rəy hazırlayıb dərc edir. Rəydə qeyd olunur ki, vitse-prezidentlik postunun yaradılması demokratik standartları pozur. Rəy müəlliflərindən soruşmaq lazımdır. Hansı beynəlxalq standartlardan söhbət gedir. Özünü dünyanın ən demokratik ölkəsi sayan ABD-də və digər inkişaf etmiş ölkələrdə vitse-prezidentlik institutu çoxdan mövcuddur".

R.Əliyev qeyd edib ki, Azərbaycan Prezidentinin səlahiyyət müddətinin yeddi ilədək artırılması ilə bağlı dəyişiklik də komissiya tərəfindən tənqid olunur: "Ancaq yaddan çıxarırlar ki, hazırda dünyanın bir çox ölkələrində bu təcrübədən istifadə olunur. Referendum aktının layihəsi ilə əlaqədar komissiyanın digər narazılığı prezidentə parlamenti buraxmaq səlahiyyətinin verilməsi ilə bağlıdır. Çox təssüf ki, bu məsələdə də Komissiya başqa ölkələrin təcrübəsinə istinad etmir. Rəydə ancaq paralamentin buraxılması səbəbləri sadalanıb. Bu səbəblər Konstitutsiyanın müvafiq maddələrinə əsaslanır: parlament hansı hallarda, hansı vəzifələri icra edə bilmədikdə buraxıla bilər. Rəylə tanış olduqdan sonra hər kəsdə belə təssəvvür yaranır ki, komissiya bu rəyi yanlız anti-azərbaycan, ermənipərəst qüvvələrin sifarişi ilə hazırlayıb. Ancaq bu qüvvələr nə qədər çalışsalar da Azərbaycan öz seçdiyi yoldan dönməyəcək. Ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da sürətlə inkişaf edəcək və dünyanın inkişaf etmiş, qabaqcıl ölkələri arasında öz yerini daha da möhkəmlədirəcəkdir".

# ABŞ və Qərb dünyası Azərbaycanın sabit və demokratik inkişafını qısqanclıqla qarşılayır

## *Yaxud anti-azərbaycançı qüvvələrin siyasi sifarişli hesabatlarla Azərbaycanın uğurlarına kölgə salmaq cəhdləri baş tutmayacaq*

***Bu gün Azərbaycanın regionda lider dövlətə çevrilməsi, mühüm, əhəmiyyətli layihələrin iştirakçısı və təşəbbüsçüsü qismində çıxış etməsi hər kəs tərəfindən təsdiqlənir, qəbul edilir. Müxtəlif nüfuzlu beynəlxalq qurumlar, ayrı-ayrı dövlət və hökumət başçıları, ekspertlər Azərbaycanın müstəqillik illərində güclü dövlət və vətəndaş cəmiyyəti quruculuğu sahəsində əldə etdiyi böyük uğurları, hazırkı dövrdə dinamik inkişafını xüsusi vurğulayırlar. Azərbaycanın davamlı inkişafı, onun beynəlxalq nüfuzunun yüksəlməsi, ölkədə təhlükəsizlik və sabitlik ABŞ və Qərbin ermənipərəst və islamofob dairələrini narahat edir.***

ABŞ və Qərbin anti-Azərbaycan dairələri hər dəfə ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən hadisələr ərəfəsində fəallaşır, demokratiya adı altında müxtəlif QHT şəbəkəsi və media vasitəsilə ölkəmizə qarşı çirkin kampaniya təşkil edirlər.

Çox təəssüflər olsun ki, ABŞ-ın bəzi "beyin mərkəzləri" Azərbaycanı hədəf seçirlər. Onlar Azərbaycanda olmayan və baş verməyən hadisələri ssenariləşdirib ictimai fikri manipulyasi etmək məqsədilə dövriyyəyə buraxırlar. Amma başa düşmürlər ki, "yalan ayaq tutaq, amma yeriməz". Çünki ABŞ özündə bu gün belə milli-dini və etnik zəmində problemlər qalmaqdadır. Məhz son vaxtlar ABŞ-da etnik, irqi və dini zəmində ayrı-seçkilik, ksenofobiya və islamofobiya təzahürləri güclənib. Bu ölkədə milli-dini və etnik zəmində baş verən münaqişələrin miqyası gündən-günə genişlənərək, qarşısıalınmaz prosesə çevrilir, kriminogen vəziyyət ağırlaşır. İş o yerə çatıb ki, bu ölkənin tanınmış ekspertləri ABŞ-da son illər silah satışının artmasını qanunsuzluğun və quldurluğun baş alıb get-



diyi bir şəraitdə özünüqoruma tədbiri kimi qiymətləndirirlər. Görəsən, öz vətəndaşının hüquqlarına biganə münasibət göstərən ABŞ-ın dünyanın ayrı-ayrı ölkələrində "insan haqlarının", "vətəndaş cəmiyyətinin" təəssübkeşi kimi çıxış etməsi nə qədər səmimi görünür?

Bütün dünyaya özünü "demokratiyanın beşiyi" qiyafəsində sırımağa çalışan ABŞ-da insan hüquqlarının tapdanması, polis özbaşınalığı artıq adi hala çevrilib. Bir müddət bundan əvvəl Fergü sonda baş verən hadisələr, istərsə də Los-Ancelеs dairəsində yerləşən Skid-Rou rayonunun mərkəzində polislərin evsiz adamı səbəbsiz yerə sərib güllələməsi, Madison şəhərində silahsız qaradərili gəncin polis əməkdaşının açdığı atəş nəticəsində öldürülməsi deyilənlərin əyani sübutu idi. O zaman "The New York Times" qəzeti yazırdı ki, Staten Island yaşayış məntəqəsində Deniel Pantaleo adlı polis 6 uşaq atası olan 43 yaşlı Erik Harneri qanunsuz siqaret satdığına görə həbs etmək istəmişdi. Polis Afrika əsilli vətəndaşı kobudcasına boğub. Nəticədə, astma xəstəliyindən əziyyət çəkən Erik Harner elə hadisə yerindəcə vəfat etmiş, bu cinayəti törədən həmin polis isə qısa müddətdən sonra azadlığa buraxılmışdı. İnsan hüquq və azadlıqlarının pozulmasına etiraz edən on minlərlə insan üzərində Erik Harnerin ölümündən qabaq dediyi "mən nəfəs ala bilmirəm"



sözləri yazılan plakatlarla küçə və meydanlara axışaraq, etiraz aksiyaları keçirdilər. ABŞ vətəndaşı olan qaradərili siyasətçilərdən biri isə Erik Harnerin dediyi həmin ifadəyə siyasi məzmun vermişdi: "İnsan haqlarının pozulduğu ölkədə nəfəs almaq mümkün deyil!". Bu hadisələrdən sonra BMT-nin İnsan Hüquqları üzrə Komitəsi ABŞ-ı Vətəndaş və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın bir sıra müddəalarına əməl etməməkdə günahlandırmışdır. Britaniyalı professor Naycel Rodlinin başçılıq etdiyi komitə isə Vaşinqtonu sosial şəbəkələrə qanunsuz nəzarət etməkdə ittiham edərək, bunu insanların şəxsi həyatına birbaşa müdaxilə kimi qiymətləndirmişdi.

Maraqlıdır ki, dünyaya demokratiya dərsi keçməyə çalışan ABŞ insan haqları ilə bağlı 13 beynəlxalq konvensiyadan 9-na qoşulmayıb. Bu gün "demokratiyanın beşiyi" olan ABŞ-da dini dözümsüzlük də elə dözülməz həddədir. Bu ölkədə anti-müsəlman islamofobiya meyilləri gündən-günə artır. Bir müddət bundan əvvəl, Şimali Karolinada 3 müsəlman tələbənin dini zəmində qətlə yetirilməsindən sonra Texasdakı Müsəlman Mərkəzi yandırıldı. Hazırda uydurma "islam terrorizmi" və "islam fundamentalizmi" ABŞ rəsmilərinin tez-tez işlətdikləri ifadəyə çevrilib.

Bununla yanaşı, ABŞ bir çox ölkəyə demokratiyaya dəstək adı ilə müdaxilələr edib. BMT-nin qaçqınlar üzrə Ali Komissarlığının hesabatına əsasən, 10,5 milyon qaçqının yarısı ABŞ-ın müdaxiləsi nəticəsində yaranıb. Çünki ABŞ və onun Avropadakı müttəfiqləri zaman-zaman müstəqil ölkələrin daxili işlərinə qarışır, sabit cəmiyyətlərdə qarışıqlıq salır, hakimiyyət çevrilişləri ssenariləri həyata keçirir. ABŞ bununla bütün dünyaya bəyan edir ki, həqiqət hər zaman güclünün tərəfindədir. Rəsmi Vaşinqtonun imperiya siyasəti nümayiş etdirir ki, beynəlxalq hüquq işləmir, diktat siyasəti bütün dünyaya hakimdir.

Bütün bunlar göstərir ki, birqütblü dünyanın idarəçiliyi missiyasını öz üzərinə götürən ABŞ-da bütün bəşəri dəyərlər ayaqlar altına atılır, dini, irqi ayrı-seçkilik, rasizm, anti-müsəlman meyilləri gündən-günə güclənir. Ksenofobiyanın və dözümsüzlüyün ən iyrənc formalarından olan islamofobiya isə, artıq bu ölkədə dövlət siyasətinin bir parçasına çevrilib.

Əlbəttə ki, biz ABŞ-ın eyiblərini açıb göstərməklə onlara "öz gözündəki tiri gör" deyirik. Nə ABŞ-ın, nədə ki, Qərbdəki digər anti-azərbaycançı dairələrin təxribatları, çirkin oyunları, "qara-piar" kampaniyaları" nəticə verəcək. Çünki Azərbaycanda legitim hakimiyyət mövcuddur, xalq hər zaman Prezidentini və dövlətini dəstəkləyir. Belə olan təqdirdə, heç bir təsir və təzyiq Azərbaycanı öz müstəqil yolundan döndərə bilməyəcək.

***"Səs" Analitik Qrupu***

# Cümşüd Nuriyev: "Onlar hər yerə başlarını soxurlar"



**"Bu gün ABŞ və onun Avropadakı müttəfiqləri müxtəlif bəhanələrlə müstəqil ölkələrin daxili işlərinə müdaxilə edir, sabit cəmiyyətlərdə xaos yaradır, hakimiyyət çevrilişləri ssenariləri həyata keçirir. Ümumiyyətlə ABŞ ancaq bu cür işlərlə məşğul olur". Bunu SİA-ya politoloq Cümşüd Nuriyev deyib.**

Onun sözlərinə görə, 1970-ci ildə ABŞ-da dollar çökəndən sonra 1976-cı ildən etibarən bu fəaliyyətlə birmənalı məşğul olmağa başlayıb: "ABŞ-ın əsas məqsədi o olub ki, dünyada hegemon statusunu qazansın və bu statusla da öz fəaliyyətini davam etdirsin. Burada ABŞ-ın tək məqsədi dollar saxlamaq deyil, bir qrup adamın iqtisadi maraqlarını qorumaq və həmin iqtisadi maraqlara xidmət etməkdir. Əslində rəsmi Amerikada dövlət hakimiyyət tərəfindən idarə olunmur. Bu, ancaq "5-ci kolon" tərəfindən idarə olunur. SSRİ dağılandan sonra ABŞ dünyada hegemonluq statusunu qazanıb. Son 10 ildə Rusiya-Çin dueti artıq onların hegemonluğunu ikinci sıraya keçirmək üzrədir. Dünyada 7 qütbləşmə əmələ gəlib. Yəni onlar Avropa Birliyinin İttifaqını yaratmışdılar ki, özlərinin oyuncağına çevirsinlər. Amma indi Rusiya ilə Çinin yürütdüyü siyasət onların bu arzusunu gözündə qoyub". C. Nuriyev əlavə edib ki, bu gün ABŞ, İngiltərə və Norveçin səfirlikləri sanki Azərbaycanda yeni yaradılacaq vitse-prezident statusunda çıxış edirlər: "Onlar hər yerə başlarını soxurlar. Azərbaycan istər beynəlxalq aləmdə, istərsə də hüquqi, iqtisadi müstəvidə sərbəst siyasət yeridir".

# YAP rəsmisi: "Riçard Kazlariç ermənipərəst qüvvələrin istəyi ilə hərəkət edir"

*Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurasının üzvü, YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynovun müsahibəsi:*



***– Ötən gün BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forst qurumun Azərbaycan ilə bağlı hesabatını açıqlayıb. Hesabata münasibətiniz necədir?***

İlk növbədə bildirim ki, sözügedən hesabat tamamilə qərəzli və böhtan üzərində qurulub. Əslində, bu hesabat xaricdəki ermənipərəst dairələrə yaxın olan "Freedom House", "Amnesty International" kimi təşkilatların bəyanatlarından fərqlənmir. Əminəm ki, BMT-nin xüsusi məruzəçisi həmin hesabatı Azərbaycana gəlməmişdən öncə hazırlayıb. Bu baxımdan da Azərbaycanda heç bir araşdırma aparmadan, mövcud reallığı öyrənmədən qərəzli və uydurma bəyanat hazırlamaq heç bir məntiqə cavab vermir. Düşünürəm ki, bu cür qərəzli hesabat hazırlamaq BMT-nin nüfuzuna ciddi xələl gətirir. Çünki BMT-nin əsas mandatı ilk növbədə dünyada ədalətin qorunmasını təmin etməkdir.

Mişel Fors hesabatında qeyd edir ki, guya Azərbaycanda insan hüquqları pozulur, mitinqlərin təşkilinə imkan verilmir, siyasi müxalifət üzvlərinin və QHT sədrlərinə qarşı təzyiqlər olur və sairə. Bütün bunlar tamamilə yalan və cəfəngiyatdır. Azərbaycan dövləti müxalifətin mitinq keçirməsi üçün şəhərin mərkəzində yer ayırır, hətta həmin mitinqdə asayişin qorunması üçün yüksək səviyyədə təhlükəsizlik tədbirləri görülür. Buna misal olaraq müxalifətin sentyabrın 11, 17 və 18-də paytaxtda keçirdiyi mitinqlərə söyləmək olar. Məgər Mişel Fors bunları bilmir? Əgər müxalifətin mitinqlərinə insanlar gəlmirsə, heç bir maraq göstərmirsə, indi bunun günahı hakimiyyətdədir? Mişel Fors da dərhal radikal müxalifətin arqumentsiz fikirlərini birtərəfli və qərəzli formada öz hesabatında qeyd edir ki, guya Azərbaycanda insanların sərbəst toplaşmasına imkan verilmir və sairə. İndi Mişel Forsa sual olunur, bir hesabatda Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin mövqeyini ifadə edən fikirləri öyrənmədən qərəzli qeydlər aparmaq nə dərəcədə ədalətlidir? Dünyada sülhün və ədalətin qorunmasında əsas mandat sahibi olan BMT-nin "ədaləti" budurmu? Mən bir daha bildirirəm ki, Mişel Forsun bu cür bəyanatı tamamilə uydurma, sifarişli və qərəzlidir, heç bir reallığı əks etdirmir. Bu cür şəxslərin Azərbaycan haqqında qərəzli mövqe nümayiş etdirməsi birinci hal deyil. Bu hallar Azərbaycan dövləti ilə vətəndaşları arasında olan qarşılıqlı inama və etimada söykənən mövqedən geri çəkindirə bilməz.

Azərbaycan Prezidentinin köməkçisi hörmətli Əli Həsənov da sözügedən hesabata toxunarkən, çox dəqiq vurğulayıb ki, insan hüquqlarından danışarkən, xüsusi məruzəçi həm də Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkünün hüquqlarının pozulmasını nəzərə almalı və sənədə daxil etməli idi.

Bəli, bu tamamilə doğru səslənən tələbdir. Azərbaycan torpaqlarının 20 faizi 25 ildir ki, Ermənistanın işğalı altındadır. Mişel Forsa xatırladım ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı ilə bağlı onun təmsil etdiyi BMT-nin 4 qətnaməsi mövcuddur. Bu işğal nəticəsində 1 milyondan çox insanımızın hüquqları pozulub. Amma Mişel Forsun hesabatında bu barədə bir kəlmə belə qərəzsiz məqam yer almır. Əgər bu gün Azərbaycanda insan hüquqlarının qorunmasından söhbət açılırsa, ilk növbədə 1 milyondan çox azərbaycanlının 25 ildən çoxdur ki, pozulan hüquqları bərpa olunmalıdır. Bizim haqlı istəyimizdir ki, bunu BMT-dən tələb edək. BMT Azərbaycanın taleyüklü məsələsi hesab olunan qaçqınların pozulmuş hüquqları və erməni işğalçılığına son qoyulması məsələsinin üzərindən keçib getməməlidir. Yaxşı olar ki, BMT öz mandatına uyğun olaraq Azərbaycanın 1 milyondan çox əhalisinin pozulmuş hüquqlarının bərpa olunması üçün fəal və səmərəli iş aparsın.

***– ABŞ-ın Azərbaycanda sabiq səfiri Riçard Kazlariç də ölkəmiz haqqında qərəzli fikirlər səsləndirib. Bu barədə nə deyə bilərsiz?***

- Bu gün Azərbaycan əksər sahələrdə ABŞ-la yaxşı münasibətlərə malikdir. Eyni zamanda ABŞ tərəfi hər zaman bəyan edir ki, Azərbaycan bizim strateji müttəfiqimizdir. Təbii ki, Azərbaycan dövləti də bu strateji müttəfiqliyə sadiqdir. Ancaq belə bir məqamda ABŞ-dakı ayrı-ayrı mərkəzlərdən qərəzli və qeyri-adekvat münasibətləri görəndə, ayrı-ayrı QHT və media qurumlarının Azərbaycanla bağlı qərəzli və qarayaxma mövqeyi müşahidə olunanda, bütün bunlar Azərbaycanla ABŞ arasındakı münasibətlərə müsbət töhfə vermir.

Digər tərəfdən isə necə olur ki, Riçard Kazlariç Azərbaycanda səfir işlədiyi dövrdə bu cür tənqidi fikirlər səsləndirmirdi. Ancaq indi tənqidi çıxışlar edir. Mən belə güman edirəm ki, ABŞ-da kök salmış erməni lobbisinin və ayrı-ayrı ermənipərəst qüvvələrin istəyi ilə hərəkət edir.

Ümumiyyətlə, onu qeyd edim ki, Azərbaycanın davamlı inkişafı, onun beynəlxalq nüfuzunun yüksəlməsi, ölkədə təhlükəsizlik və sabitlik ABŞ və Qərbdə olan erməniperəst və islamofob dairələri daim ciddi narahat edir və Azərbaycan dövlətçiliyi üçün mühüm əhəmiyyət kəsb edən hadisələr ərəfəsində fəallaşır, demokratiya adı altında müxtəlif QHT şəbəkəsi və media vasitəsilə ölkəmizə qarşı çirkin kampaniya təşkil edirlər.

# "Freedom House" erməni lobbisindən pul alması barədə hesabat versin

### Yaxud Daniel Kalinqaert adlı erməniperəst ünsür niyə Azərbaycanı hədəfə alır?

Bildiyimiz kimi, "Freedom Hosue" adlı beynəlxalq hüquq-müdafiə təşkilatı (fəaliyyəti qeyri-hökumət təşkilatı əsasındadır-R.R.). artıq uzun müddətdir ki, Azərbaycanı qərəzli, şantajçı və böhtançı səviyyəsində hədəfə alaraq, Qərbin, xüsusilə, ABŞ siyasi dairələrinin erməni lobbisi ilə əlbir olan dairələrinə xidmət göstərir. Ümumiyyətlə, "Freedom House" təşkilatının daim Azərbaycanı qərəzli formada hədəf seçməsi və ölkəmizə qarşı böhtan xarakterli hesabatları yayması birinci hal deyil. Söz yox ki, bu gün Azərbaycanın demokratik mühitinə, inkişaf və tərəqqisinə, iqtisadi uğurlarına, dünyanın siyasi arenasında özünəməxsus yer tutmasına, ali tribunalarda söz sahibinə çevrilməsinə qarşı qısqanclıqla yanaşan birinci tərəf Ermənistandır. O da sirr deyil ki, bu gün dünyanın bir çox ölkələrinə səpələnmiş ermənilər yaratdıqları güclü lobbiləri vasitəsilə Azərbaycana qarşı çoxsaylı cəbhələr açaraq, ölkəmizin demokratiya sahəsində və s. sahələrdə əldə etdiyi uğurları kölgədə qoymağa cəhdlər göstərirlər. Bu işlərdə erməni lobbisi ilə əməkdaşlıq edən bir çox beynəlxalq təşkilatlar siyasi korrupsiya və rüşvət amilindən yararlanaraq, hazırkı məqamda da həmin çirkin fəaliyyətlərini davam etdirməkdədirlər. Ümumiyyətlə, "Freedom Hoouse"nin də bu sıralamada ilk yerlərdən birini tutması sirr deyil. Eyni zamanda, erməni lobbisindən aldıqları maliyyə axını vasitəsilə yararlanan həmin təşkilatlar siyasiləşmiş yerli QHT-lərlə, dağıdıcı müxalifətə məxsus medialarda çalışan jurnalistlərlə, siyasi partiya təmsilçiləri ilə sıx əlaqələr yaradıb, bundan faydalanmağa səy göstərirlər. Yəni bu da faktdır və həmin faktların hələ çox cüzi hissəsinə nəzər salmağımız yetər ki, adıçəkilən qurumun dövlətçilik maraqlarımıza qarşı hansı münasibətdə olmasını bir daha gözərimizlə görək.

### "Freedom House" Dağlıq Qarabağı Azərbaycan ərazisi hesab etmir, onu bütün hesabatlarında (hər il!-R.R.) "müstəqil respublika" kimi göstərir - faktlar və dəlillər

Məsələn, "Freedom House" təşkilatının Azərbaycanı həmişə Ermənistandan, hətta qondarma "Dağlıq Qarabağ Respublikası"ndan demokratik azadlıqların səviyyəsinə görə geridə göstərən qərəzli hesabatları əksəriyyətə tanışdır. "Freedom House" Dağlıq Qarabağı Azərbaycan ərazisi hesab etmir, onu bütün hesabatlarında (hər il!-R.R.) "müstəqil respublika" kimi göstərir. BAX: (http://freedomhouse.org/report-/freedom-world/2013/nagorno-karabakh#.U5WnqPl_uls )

Əlbəttə ki, bu təşkilatın subyektiv rəylərini Azərbaycanda çoxdan qeyri-ciddi və sifarişli hesab edirlər. Dəfələrlə "Freedom House"un ABŞ-dakı erməni lobbi təşkilatları, erməni seperatçıları və Ermənistandakı siyasi hakimiyyət ilə sıx əlaqələri, birgə fəaliyyətləri üzə çıxıb. Bu təşkilatın "Qarabağ siyasi biznesi"ndən çoxlu pullar qazandığı, siyasi korrupsiya vasitəsilə kapital toplaması da şübhəsizdir. Ümumiyyətlə, "Freedom House" QHT-sinin ABŞ-ın rəsmi strukturlarına gizli bağlılığı, əslində, o qədər açıqdır ki, bunu adi təyinatlarla da müşahidə etmək mümkündür. BAX: (http://freedomhouse.org/content/kramer-david-j#.U5GyMfl_uls).

Beləliklə, əbəs yerə deyil ki, Prezident İlham Əliyev sentyabrın 20-də Avropa İttifaqı Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul edərkən, bu qurumun fəaliyyətini əsaslı şəkildə ifşa etmiş, qərəzçilikdə, şər və böhtan atmaqda ittiham etmişdi. "Freedom House" erməniperəst mövqe tutduğuna və Azərbaycana davamlı hücumlar etdiyinə görə ölkəmizin onunla heç bir əlaqəsi olmayan təşkilatdır"- deyə vurğulamış ölkə başçısı, həmçinin, qeyd etmişdi ki, uzun illər bu qurumun rəhbəri müxtəlif səbəblər üzündən Dövlət Departamentindən qovulmuş və Azərbaycanın ən fəal tənqidçilərindən birinə çevrilmiş Kramer olub. SİTAT: "Deyim ki, "Freedom House"un hesabatlarının bizim üçün heç bir əsası yoxdur və bu təşkilatın bu sənəddə qeyd olunması məndə təəccüb doğurur. Bu, qeyri-hökumət təşkilatıdır, yüzlərlə belə təşkilat müxtəlif hesabatlar dərc edir".

Beləliklə, dövlət başçımızın irəli sürdüyü hər bir fikri kifayət qədər dolğun, əsaslı və dəlillərə söykənir. Təkcə, yuxarıda qeyd edilən linklərdəki sübutlara nəzər salmaq kifayət edir.

"Freedom House"nin məqsədinin, niyyətinin hansı istiqamətdə olması bir daha tam çılpaqlığı ilə sübuta yetirilib. O cümlədən, əgər nəzərə alsaq ki, adıçəkilən qurumun rəhbərlik instansiyalarında təmsil olunduğu bir vaxtda Azərbaycana qarşı aşkar düşmənçilik mövqeyi sərgiləyən, eləcə də, bu qurumun prezidenti Daniel Kalinqaertdən heç də fəqrlənməyən Kramer ABŞ-ın Dövlət Departamentindən də qovulub, bu zaman istər onun, istərsə də digər təmsilçilərin, necə deyərlər, hansı yuvanın quşu olduqları növbəti dəfə aşkarlanır.

***Rövşən RƏSULOV***

# “Həmrəy olaq. HƏ deyək”










*Azərbaycanın bütün bölgələrində olduğu kimi, Bakı şəhərində də Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun 26 sentyabr 2016-cı il tarixində keçiriləcək referendumla əlaqədar təbliğat-təşviqat kampaniyası davam edir. Təşviqat Qrupu növbəti dəfə Bakı şəhəri Səbail rayonunun ərazisində seçicilərə referendumla bağlı bülleten materiallarını paylayıb.*





# "Həmrəy olaq. HƏ deyək"





## SƏBAİL -ZİRVƏ

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupu Səbail rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində "Bəyoğlan" Şadlıq Sarayında rayonun Badamdar qəsəbəsinin seçiciləri ilə görüş keçirib.

Yüzlərlə seçicilərin iştirak etdiyi görüşü YAP Səbail rayon təşkilatının sədri, "Yeni Azərbaycan" Təşviqat Qrupunun səlahiyyətli nümayəndəsi, YAP millət vəkili Şəmsəddin Hacıyev açaraq ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən Referendum Aktı ilə bağlı məlumat verib. O bildirib ki, konstitusiyaya ediləcək əlavə və dəyişikliklər ölkəmizin ictimai siyasi həyatında çox mühüm əhəmiyyət kəsb edir.

Ş.Hacıyev onu da qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra konstitusiyanın qəbulu ön plana çəkilib, hazırlanan layihənin cəmiyyətin ən müxtəlif təbəqələrinin iştirakı ilə ümumxalq müzakirəsi aparıldıqdan sonra 12 noyabr 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası (Əsas Qanunu) qəbul edilib və 27 noyabr 1995-ci ildə qüvvəyə minib: "Ölkənin Əsas Qanununda müvafiq dəyişikliklərin edilməsi obyektiv zərurətdən irəli gəlir və Azərbaycan Respublikasının bəyan etdiyi demokratiyanın inkişafı konsepsiyasına uyğundur. Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər sosial-siyasi, iqtisadi-hüquqi sahələrdə, o cümlədən, idarəetmədə kompleks islahatları özündə ehtiva edir. Eyni zamanda, konstitusiya dəyişiklikləri Azərbaycanın gələcəyi, ölkəmizdə idarəetmənin keyfiyyətcə yeni mərhələyə daşınması, insan hüquqlarının daha yaxşı təmin olunması, milli və dövlət təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir. Bu dəyişikliklərdə hər bir vətəndaşı maraqlandıran və onun istəklərinə cavab verən müddəalar var".

"Hər bir önəmli hadisə keçilən yolun təhlilini zərurətə çevirir" -deyən Ş.Hacıyev müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib-hazırlanan konstitusiyamızın ümumxalq səsverməsi yolu qəbulundan 21 ilə yaxın zaman keçdiyini deyib: "Ölkəmiz bu il dövlət müstəqilliyini yenidən bərpa etməsinin 25 ilini qeyd edəcək. 25 il zaman baxımından qısa dövr olsa da, bu uğurları möhkəm təmələ əsaslanan siyasət şərtləndirir. Ümummilli Liderimiz Heydər Əliyevin düşünülmüş və gələcəyə hesablanmış siyasətinin son 13 ildə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu gün Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək hədəfimizə yol açır. Konstitusiyanın 23 maddəsinə edilən dəyişikliklərə, eyni zamanda, əlavə olunan 6 maddəyə diqqət yetirdikdə, qeyd olunan vəzifələrin prioritetliyi qabarıq şəkildə özünü büruzə verir. Bu mənada, zərurətdən irəli gələrək, konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi labüd hesab olunur".

Çıxışının sonunda Ş.Hacıyev hər kəsi sentyabrın 26-da keçiriləcək referendumda fəal iştirak etməyə, həmrəylik nümayiş etdirməyə və ümumxalq səsverməsi günü dəyişikliklərə "HƏ" deməyə çağırıb.





## ŞABRAN

26 sentyabr ümumxalq səsverməsi ilə bağlı Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupu Şabran rayon seçiciləri ilə görüş keçirilib. 200 nəfərin iştirak etdiyi görüşü "Yeni Azərbaycan" Təşviqat Qrupu Şabran rayon şöbəsinin sədri Mehdi Balabəyov açaraq, ölkə konstitusiyasına təklif edilən əlavə və dəyişikələrlə bağlı geniş məlumat verib. O bildirib ki, konstitusiya hər bir vətəndaşın hüquqlarının təminatçısıdır. Orada edilən hər hansı əlavə və dəyişiklik isə seçicilərin iradəsi ilə baş verir.

Tədbirdə iştirak edən "Yeni Azərbaycan" Təşviqat Qrupun səlahiyyətli nümayəndəsi, "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev seçicilərə Referendum Aktında yer alan müddəalar haqqında məlumat verib. B.Quliyev bildirib ki, konustitusiyaya təklif olunan əlavə və dəyişikliklərdə əks olunan müddəalar hazırkı dünya siyasətində baş verən hadisələr fonunda ölkəmizin əmin-amanlığını və sabitliyinin daha da möhkəmlənməsinə, Azərbaycanın bir dövlət kimi iqtisadi cəhətdən daha da qüdrətlənməsinə, idarəçilik baxımından daha çevik qərarların qəbul olunmasına təkan verəcək: "Bütövlükdə, nəzərdə tutulan dəyişikliklər Azərbaycanın müstəqillik qazandıqdan sonra ölkənin sosial-iqtisadi, hüquqi islahatlar nəticəsində nail olduğu uğurların möhkəmləndirilməsi, hüquq normalarının, bilavasitə, ana qanunda təsbit edilməklə onlara əməl olunmasının hüquqi əsaslarının gücləndirilməsi məqsədi güdür. Əvvəlki iki dəyişiklikdə olduğu kimi, hazırkı dəyişikliklər hazırlanan zaman da qabaqcıl ölkələrin təcrübəsi nəzərdən keçirilib, Azərbaycanın özünəməxsus inkişaf yolunun dayanıqlığının təmin edilməsi, ölkə üçün daha uğurlu idarəetmə modelinin düzgün seçimi hədəf kimi müəyyən olunub, stabil dövlət quruculuğunun təməlinin möhkəmləndirilməsi və onun qanunsuz müdaxilələrdən qorunması əsas vəzifə kimi qarşıya qoyulub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti son illər çox böyük uğurlar qazanıb, ölkəmizin iqtisadiyyatı yüksək sürətlə inkişaf edir. Xalqımızın rifah halı yüksəlib, ölkəmizin beynəlxalq səviyyədə nüfuzu durmadan artır. Bütün bu nailiyyətlər hər bir azərbaycanlıda qürur hissi doğurur".

Milli Məclisin deputatı Tahir Süleymanov görüşdə çıxış edərək, Şabran seçicilərini seçki məntəqələrinə dəvət edərək, hər kəsi tərəqqi və inkişafa səs verməyə çağırıb. Təklif olunan əlavə və dəyişikliklərin sosial-iqtisadi əhəmiyyətinə toxunan deputat bildirib ki, bu dəyişikliklər konstitusiyamızı daha da zənginləşdirməklə yanaşı, ölkədə insan hüquqları və azadlıqlarının daha da artırılmasına, dövlət hakimiyyətinin tarazlaşdırılmasına, idarəetmədə balans sistemininin yaradılmasına, habelə, ictimai mənafelər baxımından torpaq mülkiyyətindən daha da səmərəli istifadə olunmasına şərait yaradacaqdır. Əsas qanunumuza ediləcək bu mütərəqqi dəyişikliklərin ölkədə dövlət-cəmiyyət-şəxs arasındakı münasibətəri keyfiyyətcə yeni mərhələyə daşıyacağını xüsusi qeyd edən natiq hər kəsi bu mütərəqqi islahatları dəstəkləməyə və səsvermədə fəal iştirak etməyə dəvət edib.

Görüşdə çıxış edən şabranlı seçicilər də respublikamızda keçirilən hər bir seçkilərdə həmişə fəal olduqlarını söyləyiblər və qarşıdan gələn seçkilərdə də islahatlara səs verəcəklərini bildiriblər.





## XAÇMAZ

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Xaçmaz rayon şöbəsi seçicilərlə növbəti görüşünü keçirib. Görüşdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev ümumxalq müzakirəsinə çıxarılan Referendum Aktında nəzərdə tutulan əlavə və dəyişikliklərlə bağlı geniş məlumat verib. N.Ağayev bütün seçiciləri 26 sentyabrda bu birliyi, mütəşəkkilliyi davam etdirərək, onların seçki məntəqələrinə gəlib, gələcəkdə daha yaxşı yaşamaq, uğurlar qazanmaq, Vətənimizi güclü və qüdrətli görmək istəyi ilə yekdilliklə səs verəcəklərinə əminliyini bildirib: "Əminliklə vurğulaya bilərəm ki, 2016-cı il sentyabr ayının 26-da xalqımız, eləcə də xaçmazlılar dövlət rəhbərinin Azərbaycan Konstitusiyasına dəyişikliklərə bağlı təşəbbüsünə müsbət rəy bildirəcək və bu dəyişikliklər ölkədə dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, gücləndirilməsi ilə yanaşı, demokratiyanın növbəti möhtəşəm təntənəsi olacaq".

Görüşdə millət vəkilləri Yevda Abramov, İlham Əliyev və Eldəniz Səlimov çıxış edərək bildiriblər ki, Prezident İlham Əliyevin beynəlxalq hüquq normalarını rəhbər tutaraq, həyata keçirdiyi islahatlar nəinki daxili siyasətin, eyni zamanda, paralel olaraq xarici siyasətin daha da inkişaf etdirilməsinə dəyərli töhfələr verir: "Bu gün uğurla davam etdirilən inkişaf strategiyası, bütün sahələrdə yeni-yeni nailiyyətlərin əldə edilməsi Azərbaycan Respublikasının hüquqi dövlətdən sosial dövlətə keçidinin son mərhələsinin yaşandığını sübut edir. Məhz bu güclü dövlətin təməl prinsipləri yolunda xaçmazlılar sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsində həmrəyliy nümayiş etdirib islahatlara "HƏ"deyəcəklər".

Görüşdə seçicilərdən Ayaz Mirzəyev, Sevinc Sədullayeva, Elman Allahyarov, Amil Rəhimov, Ofelya Sərkərova, milli qəhrəman atası Əlibala Şahbazov çıxış edərək bildiriblər ki, bir nəfər kimi sentyabrın 26-da məntəqələrə gedərək, Referendum Aktını qətiyyətlə dəstəkləyəcəyik.

Ardı-Səh-17

# "Həmrəy olaq. HƏ deyək"

Əvvəli-Səh-16

## SABUNÇU





Dünən Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının qərargahında bu ilin 26 sentyabr tarixində keçiriləcək ümumxalq səsverməsi (referendum) ilə bağlı görüş keçirilib. Yığıncağı giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva Azərbaycan Respublikası Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklər barədə ətraflı məlumat verib. O, qeyd edib ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən konstitusiyaya təklif olunan əlavə və dəyişikliklər müasir dövrün tələblərdən irəli gəlir: "Sabunçu rayonu hər zaman ən qabaqcıl rayonlarından olmaqla yanaşı, bütün seçkilərdə öz fəallığı ilə seçilib. Biz Prezidentimizin ətrafında yumruq kimi birləşmişik. 26 sentyabrda bir daha həmrəy olub, referenduma HƏ deyəcəyik".

O bildirib ki, bu gün həm dövlətimizin siyasi-hüquqi və sosial-iqtisadi baxımdan inkişafının sürətli getməsi, həm regionun lider ölkəsi kimi transmilli layihələrin təşəbbüskarı və reallaşdırıcısı kimi qlobal əhəmiyyətli dövlətə çevrilməsi, həm də ölkəmizin böyük dövlətlərin diqqət mərkəzində olması Azərbaycanın inkişafının keyfiyyətcə yeni mərhələyə daşıyacaq və təhlükəsizliyini təmin edəcək hüquqi dəyişikliklərin həyata keçirilməsini günün tələbinə çevirir. Görüşdə şərqşünas-alim, akademik Vasim Məmmədəliyev də bu ilin 26 sentyabr tarixində keçiriləcək ümumxalq səsverməsinin (referendum) əhəmiyyətini xüsusi vurğulayıb: "Mən hər kəsi seçkilərdə fəal olmağa çağırıram". V.Məmmədəliyev Azərbaycan dövlətinin möhkəmlənməsindən danışaraq, bütün bunların, məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində baş verdini deyib: "Güclü dövlətin qurulması Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Dövlət başçısı İlham Əliyev Azərbaycanı yüksələn templə irəli aparır".

Sonda YAP Sabunçu rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov və başqaları çıxış edərək Azərbaycan dövlətinin sürətlə inkişaf etdiyini, müasir dünyaya inteqrasiya olunduğunu qeyd edərək, tərəqqinin keyfiyyətcə yeni mərhələsinə keçid üçün sözügedən dəyişikliklərə ehtiyac duyulduğunu vurğulayıblar.

## BİLƏSUVAR

Dünən YAP Biləsuvar rayon təşkilatının akt zalında Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı 26-da keçiriləcək referendumla əlaqədar qadın seçicilərlə görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev Azərbaycan Respublikasın da keçiriləcək referendum haqqında məlumat verərək, ümumxalq səsverməsinə çıxarılacaq Əsas Qanununmuza əlavə və dəyişikliklərlə bağlı geniş məlumat verib. K.Mirzəyev Biləsuvar rayonunda referendumla əlaqədar fəal təbliğat işlərinin aparıldığını qeyd edərək, seçiciləri sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsində fəal olmağa, ölkəmizin demokratik dəyərlərimizin qorunmasına çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Mirkazım Kazımov konstitusiyaya nəzərdə tutulan əlavə və dəyişikliklərin zəruriliyindən söz açıb. M.Kazımov qeyd edib ki, konstitusiyaya təklif edilən dəyişikliklər ölkədə demokratik təsisatların fəaliyyətinin və bütövlükdə, idarəetmə sisteminin təkmilləşdirilməsinə və insan hüquq və azadlıqlarının təminatına xidmət edir. Millət vəkili hər bir qadın seçiciləri sentyabrın 26-da seçkilərdə daha fəal olamağa, öz gələcəyinin inkişafına dəstək olmağa çağırıb.

Görüşdə YAP Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək bildirib ki, sosial-iqtisadi sahənin daha da inkişaf etdirilməsi, siyasi sistemin təkmilləşdirilməsi, ölkənin təhlükəsizliyinin, milli maraqlarının və insanların hüquq və azdlıqlarının daha etibarlı şəkildə qorunması baxımından konstitisiyaya təklif edilən dəyişikliklər günün reallığıdır. Bu mənada, qadınlarımız konstitusiyaya təklif edilən əlavə və dəyişiklikləri dəstəkləməlidir. Natiq əmin olduğunu bildirib ki, 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək referendumda Biləsuvarlı qadınlar öz sözlərini deyərək, əlavə və dəyişikliklərə "HƏ" deyəcəklər.





## QOBUSTAN

Dünən Referendum üzrə "Yeni Azərbaycan " Təşviqat Qrupunun Qobustan rayon şöbəsi qadın seçicilərlə görüş keçirib. Tədbiri giriş sözü ilə açan YAP Qobustan rayon təşkilatının və Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev konustitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə bağlı məlumat verib. Qeyd edib ki, konstitusiyaya nəzərdə tutulan əlavə və dəyişikliklərin bir çox sahələrdə yeni keyfiyyət standartlarının yaranmasına səbəb olacaq.

F.Gülalıyev Qobustan rayon qadınlarının daha fəal olmağa çağırıb və əminliklə vurğulayıb ki, ölkə vətəndaşları, o cümlədən, qadınlar sentyabrın 26-da Referendum Aktına səs verəcəklər. Görüşdə YAP Qobustan rayon təşkilatının qadınlar şurasının üzvü Zümrüd Şərifova çıxış edərək Konustitusiya İslahatlarının əhəmiyyətindən söz açıb. Bildirib ki, YAP Qobustan rayon təşkilatında təmsil olunan 680 nəfərdən çox qadının da rayonun ictimai-siyasi həyatında aktiv iştirak edir. Z.Şərifova qarşıdan gələn ümumxalq səsverməsində də, məhz belə olacağına inandığını vurğulayaraq konustitusiya dəyişiklikləri Azərbaycanın gələcəyi, ölkəmizdə idarəetmənin keyfiyyətcə yeni mərhələyə daşınması, insan hüquqlarının daha yaxşı təmin olunması





,milli və dövlət təhlükəsizliyi baxımından olduqca əhəmiyyətli olduğunu qeyd edib. Z.Şərifova seçiciləri, o cümlədən, qadınları referendum ilə əlaqədar Konstitusiyamıza əlavə və dəyişiklik ediləcək 26 sentyabrda seçki məntəqələrinə gələrək səs verməyə çağırıb. Görüşdə qadın seçicilərdən Nahidə Kərimova, Mətanət Abdulxalıqova və digərləri çıxış edərək Müstəqil Azərbaycan Konstitusiyasına təklif olunan əlavə və dəyişiklikləri bəyəndiklərini, 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək referendumda edilən dəyişiklik və əlavələrə səs verəcəklərini bildiriblər.

## GÖYÇAY





Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Göyçay rayon şöbəsi seçicilərlə növbəti görüşünü keçirib. Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatında keçirilən görüşdə çıxış edən YAP Göyçay rayon təşkilatınının sədri Sahib Şükürov ümumxalq müzakirəsinə çıxarılan Referendum Aktında nəzərdə tutulan əlavə və dəyişikliklər barədə məlumat verərək bildirib ki, Azərbaycanda sözün əsl mənasında, hüquqi dövlətin yaradılmasına və vətəndaş cəmiyyətinin formalaşdırılmasına istiqamətlənən konstitusiya dəyişiklikləri dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, ölkəmizdə insan hüquqlarının və azadlıqlarının daha da genişləndirilməsinə xidmət edəcək.

Ardı-Səh-18

# "Həmrəy olaq. HƏ deyək"

Əvvəli-Səh-17

Milli Məclisin deputatı Elman Nəsirov çıxış edərək Göyçay seçicilərini seçki məntəqələrinə dəvət edərək, hər kəsi tərəqqi və inkişafa səs verməyə çağırıb. Təklif olunan əlavə və dəyişikliklərin sosial-iqtisadi əhəmiyyətinə toxunan deputat bildirib ki, bu dəyişikliklər konstitusiyamızı daha da zənginləşdirməklə yanaşı, ölkədə insan hüquqları və azadlıqlarının daha da möhkəmlənməsinə, dövlət hakimiyyətinin tarazlaşdırılmasına, idarəetmədə balans sistemininin yaradılmasına, habelə ictimai mənafelər baxımından torpaq mülkiyyətindən daha da səmərəli istifadə olunmasına şərait yaradacaqdır. Əsas qanunumuza ediləcək bu mütərəqqi dəyişikliklərin ölkədə dövlət-cəmiyyət-şəxs arasındakı münasibətəri keyfiyyətcə yeni mərhələyə daşıyacağını xüsusi qeyd edən natiq hər kəsi bu mütərəqqi islahatları dəstəkləməyə və səsvermədə fəal iştirak etməyə dəvət edib.

Görüşdə çıxış edən millət vəkili Sabir Hacıyev qeyd edib ki, konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər daha dinamik inkişafı hədəfləyir və zamanın tələbidir: "İnanıram ki, bütün siyasi proseslərdə öncül sıranı tutan Göyçay seçiciləri bu dəfə də Azərbaycan dövlətinin güclənməsinə, daha effektiv idarəçiliyin formalaşdırılmasına, insan hüquq və azadlıqlarının daha da genişləndirilməsinə, bir sözlə, referenduma çıxarılan əlavə və dəyişikliklərin lehinə səs verəcək. Bütün seçiciləri sentyabrın 26-da keçiriləən referendumda aktiv iştirak etməyə çağırıram".

"Yeni Azərbaycan" Təşviqat Qrupunun üzvü, Göyçay rayon Heydər Əliyev Mərkəzinin direktoru Zenfira Əliyeva Azərbaycanda son illərdə müşahidə olunan dinamik inkişafından danışıb. O, kontitusiyamıza müvafiq dəyişikliklərin edilməsini və milli qanunvericilik bazasının daha da təkmilləşdirilməsini zəruri olduğunu bildirib.

## TƏRTƏR





Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Tərtər rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüş keçirib. Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Tərtər rayon şöbəsinin və YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov görüşdə çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyasına təklif edilən dəyişikliklər ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demokratik təsisatların fəaliyyətinin və bütövlükdə, idarəetmə sisteminin təkmilləşdirilməsinə xidmət edir. R.Şabanov onu da vurğulayıb ki, regionda və dünyada baş verən hadisələr, milli dövlətlərin təhlükəsizliyinə qarşı mövcud olan hədələr hər kəsi qabaqlayıcı tədbirlər görməyə sövq edir.

R.Şabanov əminliklə vurğulayıb ki, sentyabrın 26-da tərtərlilər həmrəylik nümayiş etdirməklə referenduma "HƏ" deyəcəklər.

Görüşdə millət vəkili Ağalar Vəliyev çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin beynəlxalq hüquq normalarını rəhbər tutaraq həyata keçirdiyi islahatlar nəinki daxili siyasətin, eyni zamanda, paralel olaraq xarici siyasətin daha da inkişaf etdirilməsinə dəyərli töhfələr verir: "Bu gün uğurla davam etdirilən inkişaf strategiyası, bütün sahələrdə yeni-yeni nailiyyətlərin əldə edilməsi Azərbaycan Respublikasının hüquqi dövlətdən sosial dövlətə keçidinin son mərhələsinin yaşandığını sübut edir".

Millət vəkili A.Vəliyev Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan ötən dövr ərzində artıq iki dəfə - 2002-ci və 2009-cu illərdə ümumxalq səsverməsi ilə bu ali qanunvericilik sənədinə müəyyən əlavə və dəyişikliklər edildiyini söyləyib: "Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər sosial, siyasi, iqtisadi, hüquqi sahələrdə, o cümlədən, idarəetmədə kompleks islahatları özündə ehtiva edir. Əminliklə söyləmək olar ki, təklif olunan əlavə və dəyişikliklər hüquqların etibarlı təminatçısı olacaq, idarəetmə sisteminin daha da təkmilləşməsinə mühüm töhfələr verəcək".

Görüşdə Tərtər şəhər sakini Surxay Mirzəyev, Qapanlı kənd sakini

Fitat Əliyeva, Səhləbad kənd sakini Validə Mahmudova, İrəvanlı kənd sakini Faiq Məmmədov, Balakəngərli kənd sakini Rəşad Şahbazov, Tərtər şəhər sakini Lalə Rəhimli bildiriblər ki, böyük ruh yüksəkliyi ilə sentyabrın 26-da güclü Azərbaycanımızın daha uğurdlu gələcəyinə səs verəcəyik.





## UCAR

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun üzvləri sentyabrın 26-da Azərbaycan Respublikasının Konstitusiyasına edilməsi nəzərdə tutulan əlavə və dəyişikliklərlə bağlı keçiriləcək ümumxalq səsverməsinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Ucar rayon mərkəzində seçicilərilə görüş keçiriblər.

Yığıncağı YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, referendumla əlaqədar rayonda görülən hazırlıq işlərindən danışıb.

"Yeni Azərbaycan" Təşviqat Qrupunun səlahiyyətli nümayəndələri, Milli Məclisin deputatları Vüsal Hüseynov və Jalə Əliyeva konstitusiyada əlavə və dəyişikliklərin edilməsinin zamanın vacib siyasi hadisəsi olduğunu vurğulayaraq, qeyd ediblər ki, bu islahatlar Azərbaycan dövlətçiliyinə xidmət etdiyi üçün sentyabrın 26-da referendum keçirilməsi xalqın iradəsini əks etdirir.

Görüşdə rayon Ağsaqqallar Şurasının sədri Nurəddin Xəlilov seçicilər adından çıxış edərək, konstitusiyada edilən dəyişikliklərin respublikamız üçün geniş şərait yaradacağını qeyd edərək, qarşıdan gələn ümumxalq səsvermədə yaxından iştirak edəcəklərini və dəyişikliklərə "HƏ" deyəcəklərini bildiriblər.

## ASTARA

Dünən Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatında, sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsi ilə bağlı ilk dəfə səs verəcək astaralı gənclərlə görüş keçirilib. Görüşü giriş sözü ilə açan YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib. Bu əlavə və dəyişikliklərin bütün ölkə vətəndaşlarının, xüsusən də, gənclərin maraqlarına uyğun olduğunu deyən Firudin Əhmədov ilk dəfə səs verəcək astaralı gəncləri fəal olmağa, sentyabrın 26-da Referendum Aktına səs verməyə çağırıb.





Görüşdə çıxış edən Milli Məclisin deputatı Mirkazım Kazımov Azərbaycan gənclərinin cəmiyyətin aparıcı qüvvələrindən biri olduğunu bildirib. O, qeyd edib ki, bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir: "Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və Onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir".

YAP Astara rayon təşkilatı gənclər birliyinin sədr mavini Kəmalə Nəsirova çıxışında Azərbaycanın Ali Qanununa əlavə və dəyişikliklər edilməsi ilə bağlı təbliğat-təşviqat kampaniyasının yüksək mütəşəkkilliklə aparıldığını bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin uzaqgörənliklə atdığı qətiyyətli addımlar hər bir vətəndaşımız tərəfindən rəğbətlə qarşılanır: "Prezident İlham Əliyevin təşəbbüsü ilə konstitusiyamıza təklif edilən əlavə və dəyişikliklər də xalqımızın gələcək inkişafına təminat verəcək və sözsüz ki, bütün astaralılar tərəfindən dəstəklənəcək".

Görüşdə gənclər çıxış edərək, qarşıdan gələn ümumxalq səsvermədə yaxından iştirak edəcəklərini və öz gələcəklərinə səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ KAMALQIZI,**
**RÖVŞƏN NURƏDDİNOĞLU,**
**İSMAYIL QULİYEV**

# "Həmrəy olaq. HƏ deyək"









*Azərbaycanın bütün bölgələrində olduğu kimi, Bakı şəhərində də Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun 26 sentyabr 2016-cı il tarixində keçiriləcək referendumla əlaqədar təbliğat-təşviqat kampaniyası davam edir. Təşviqat Qrupu növbəti dəfə Bakı şəhəri Nəsimi rayonunun ərazisində seçicilərə referendumla bağlı bülleten materiallarını paylayıb.*





# “Həmrəy olaq. HƏ deyək”





## NƏSİMİ

Dünən Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun Nəsimi rayon şöbəsi tərəfindən təbliğat-təşviqat kampaniyası çərçivəsində açıq havada rayon seçiciləri ilə görüş keçirilib. Tədbirdə 1000 nəfərdən çox seçici iştirak edib.

Görüşü giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı bildirib ki, bu gün mövcud iqtidarın monolit birliyi nəticəsində Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı azad, müstəqil və demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xəttlə inamla getməkdə, inkişafını davam etdirməkdədir: “Bu xətti əzmlə irəli aparan isə Ulu Öndərin layiqli varisi, praqmatik dövlət xadimi, dünya miqyasında böyük hörmət və nüfuza malik Möhtərəm Prezidentimiz İlham Əliyevdir: “Möhtərəm Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Ulu Öndər Heydər Əliyevin siyasi kursunun həyata keçirilməsində, ölkəmizin hərtərəfli inkişafında mühüm uğurlar qazanılmaqdadır”.

M.İbrahimqızı qeyd etdi ki, Prezidentimiz İlham Əliyevin təklif etdiyi Referendum Aktı layihəsi üzrə edilən əlavə və dəyişikliklər ölkəmizin sivil və modern inkişafına, demokratiyanın dərinləşməsinə, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin gücləmməsinə, iqtisadi tərəqqi və sosial-iqtisadi yüksəlişə geniş yol açacadır.

Rayon təşkilatının sədri Nəsimi rayonunun seçicilərini aktiv olub, 26 sentyabr tarixində seçki məntəqələrinə gələrək, öz gələcəklərinə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən “Yeni Azərbaycan” Təşviqat Qrupunun səlahiyyətli nümayəndəsi, Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirdi ki, Referendum Aktının layihəsində vətəndaşları maraqlandıran çoxsaylı məsələlər əks olunub. Bu layihə geniş spektri əhatə etməklə özündə ən aktual məsələləri cəmləşdirir. Hazırda regionda və dünyada olduqca mürəkkəb proseslər baş verir və bunlar milli dövlətlərin mövcudluğuna ciddi təhdidlər yaradır: “Referendum Aktının layihəsində təhlükəsizlik məsələlərinin yer alması milli dövlətimizin təhlükəsizliyinin təmin olunması baxımından böyük əhəmiyyət daşıyır. Məlumdur ki, Azərbaycan hüquqi dövlətdir və ölkə konstitusiyasının üçdə biri insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunub. Amma o da məlumdur ki, hazırkı mərhələdə bir sıra hallarda hüquqdan sui-istifadə edilməsi halları müşahidə edilir. Bu, təkcə vətəndaşlar səviyyəsində baş vermir, bu cür hallara milli dövlətlərin iradəsinə hüquqdan sui-istifadə edərək, təzyiq göstərən ayrı-ayrı mərkəzlər tərəfindən də yol verilir. Məhz hüquqdan sui-istifadəni qadağan edən bir maddənin Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapması hüquqi cəmiyyətin inkişafına töhfə verəcək, həm də dövlətin hüquq sistemini yeni keyfiyyət mərhələsinə daşıyacaq”.

Tədbirdə çıxış edən Nəsimi rayon Ağbirçəklər Şurasının sədri Zərifə Quliyeva konstitusiyaya dəyişikliklərin dünyanın inkişaf etmiş, öncül, sabit ictimai mühiti olan ölkələrdə aparıldığını vurğulayaraq, Azərbaycanda da həyatın bütün sahələrində sürətli inkişafın müşahidə olunduğunu bildirib. Ölkə başçısı İlham Əliyevin düşünülmüş, müdrik və müstəqil siyasi strategiyası nəticəsində Azərbaycanda sakitliyin, əmin-amanlığın hökm sürdüyünü və ölkəmizin davamlı inkişafa nail olduğunu bildirdi. Qeyd edib ki, Nəsimi seçiciləri də 26 sentyabrda keçiriləcək referendumda da fəal iştirak edərək, əlavə və dəyişikliklərə “HƏ” deyəcəklər.

Tədbir musiqili konsert proqramı ilə davam edib.






## AĞCABƏDİ

Dünən Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat QrupuAğcabədi rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun ilk dəfə səs verəcək gəncləri ilə görüş keçirib.

Görüşü “Yeni Azərbaycan” Təşviqat Qrupunun Ağcabədi rayon şöbəsinin sədri Rövşən Əhmədov açaraq bildirib ki, gənclər ölkəmizin ictimai-siyasi həyatında həmişə önəmli rol oynamışlar. Bütün siyasi kampaniyalarda olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyasında əlavə və dəyişikliklərlə əlaqədar keçiriləcək ümumxalq səsverməsində də gənclərimiz yüksək fəallıq nümayiş etdirirlər: “Ulu Öndər Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın vətəndaşı kimi sizin üzərinizə böyük məsuliyyət düşür. Dünyada baş verən mürəkkəb iqtisadi-siyasi proseslər zəminində ölkənin gələcəkdə müstəqilliyini qorumaq, onu inkişaf etdirmək sizlərin üzərinə düşür”.

Rayon təşkilatının sədri 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək referendumda gənclərin seçki məntəqələrinə gələrək, əlavə və dəyişikliklərə “HƏ” deyəcəklərinə əminliyini bildirdi.

Milli Məclisin deputatı Tahir Rzayev görüşdə çıxış edərək, konstitusiyaya ediləcək əlavə və dəyişikliklərlə bağlı təqdim olunan layihə barədə geniş təhlil apararaq, bu layihənin ölkənin gələcək inkişafına hesablandığını qeyd etdi və gəncləri referendumda nəzərdə tutulan dəyişikliklərə “HƏ” deməyə səslədi.

Görüşdə YAP Ağcabədi rayon təşkilatının sədr müavini Eldəniz Qənbərov çıxış edərək, ilk dəfə səs verəcək gəncləri maarifləndirərək, onlara referendumda fəal olmağı tövsiyə etdi.

Görüşdə YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinin sədri Elnur Quliyev çıxış edərək, gənclərin ölkəmizdə, eləcə də Ağcabədi rayonunda bütün sahələrdə öndə gedən novator olduğunu qeyd etdi və bildirdi ki, Ağcabədi gəncləri referendumda fəal iştirak edərək, təklif olunan əlavə və dəyişikliklərə müsbət münasibətlərini ifadə edəcəklər.

Görüşdə ilk dəfə səs verəcək gənclər adından Ağcabədi Pedaqoji Kollecin tələbəsi Giləxanım Heydərova və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının tələbəsi Lamiyə Qarayeva çıxış edərək üzvü olduqları kollektivlərin bütün üzvlərinin 26 sentyabrda seçki məntəqələrinə gələrək, Referendum Aktının layihəsini dəstəkləyəcəklərini bildirərək gəncləri referendumda fəal olmağa səsdilər.





## İsmayıllı

Dünən Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun İsmayıllı rayon şöbəsi seçicilərlə növbəti görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə Vahabova Azərbaycan Konstitusiyasına təklif edilən əlavə və dəyişikliklərin sosial tələb olduğunu və ölkəmizdəki mövcud uğurların bariz nəticəsi kimi qiymətləndirib. Rayon təşkilatının sədri Konstitusiya İslahatlarının ölkəmizin tərəqqi və inkişafına, insanların gələcək rifahına hesablandığını bildirərək, bu dəyişikliklərin ölkəmizin daha da güclənməsinə, xalqımızın firavan, təhlükəsiz yaşanmasına xidmət edəcəyini bildirib.

Ə.Vahabova çıxışında konstitusiyamıza təklif olunan əlavə və dəyişikliklərin ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə, sürətli inkişafına gətirib çıxaracağını bildirərək, İsmayıllı seçicilərini seçki məntəqələrinə gələrək, referendumda fəal iştirak etməyə dəvət edib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Novruzəli Aslanov bildirib ki, bu gün Azərbaycan yüksək inkişaf dinamikasına malik güclü dövlətdir. Həyata keçirilən hərtərəfli, düşünülmüş, məqsədyönlü siyasət sayəsində Azərbaycan iqtisadiyyatı dünyada gedən proseslərdən asılı olmayaraq, müstəqil şəkildə inkişaf edir. Ümummilli Liderin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirən Cənab İlham Əliyevin rəhbərliyi altında respublikamız sosial-iqtisadi inkişafın bütün göstəriciləri üzrə irəliləyişə nail olub.

Millət vəkili İsmayıllı seçicilərini seçkilərdə fəal iştirak etməyə, xalqımızın xoşbəxt gələcəyi naminə konstitusiyaya ediləcək əlavə və dəyişikliklər “HƏ” deməyə çağırıb.

Görüşdə çıxış edən millət vəkili Fuad Muradov ölkə konstitusiyasının yaranma tarixindən, o vaxtdan ötən müddət ərzində aparılan Konstitusiya İslahatlarından danışıb. Millət vəkili əlavə və dəyişikliklərin 15-nin, təqribən 60 faizinin insan hüquq və azadlıqlarının təminatına həsr edildiyini vurğulayaraq, bütün seçiciləri 26 sentyabrda keçiriləcək ümumxalq səsvermədə fəal olmağa və Referendum Aktı layihəsinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən “İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov Azərbaycanın dünyanın stabil dövlətlərindən birinə çevrildiyini qeyd edərək, belə bir dövrdə konstitusiyaya edilən əlavə və dəyişikliklərin zəruri olduğunu bildirib.

Görüşdə seçicilər Bəxtiyar Fərəcov, Hafiz Kərimov, Könül Baxışova, Ramiz Baloğlanov, Ruhiyyə Mirzəyeva və digərləri çıxış edərək, ümumxalq səsvermədə fəal iştirak edəcəklərini və hamılıqla “Həmrəy olaq, HƏ deyək!” devizini dəstəkləyəcəklərini bildiriblər.

Görüşün sonunda konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərlə bağlı geniş müzakirələr aparılıb.

Ardı-Səh-21

# “Həmrəy olaq. HƏ deyək”

Əvvəli-Səh-20

### İSMAYILLIDA GƏNCLƏRLƏ GÖRÜŞ





Dünən Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun İsmayıllı rayon şöbəsinin daha bir görüşü ilk dəfə səs verəcək gənclərlə keçirilib.

Tədbiri giriş sözü ilə “Yeni Azərbaycan” Təşviqat Qrupunun rayon şöbəsinin və YAP rayon təşkilatının sədri Əzizə Vahabova açaraq qeyd etdi ki, 26 sentyabr tarixində ölkəmizdə baş tutacaq ümumxalq səsverməsi - referendum inkişafın ortaya çıxardığı reallıqlardan və zərurətdən qaynaqlanır.

Ə.Vahabova bildirdi ki, konstitusiyaya təklif edilən dəyişikliklər və əlavələr sosial, siyasi, iqtisadi, hüquqi sahələrdə, o cümlədən, idarəetmədə kompleks islahatları özündə ehtiva edir. Konstitusiyanın 23 maddəsinə dəyişikliklərin edilməsi, 6 maddənin əlavə olunması dövrün tələbidir. Dövlətimizin bu tələbləri zamanında yüksək səviyyədə həyata keçirməsinin nəticəsidir ki, yeni-yeni hədəflər gündəmə gətirilir və onlara nail olmaqla növbəti dövrün məqsədləri açıqlanır. O, konstitusiyaya əlavə və dəyişikliklərin edilməsini qarşıdakı hədəflərə daha yüksək səviyyədə çatmağa stimul verəcəyin qeyd etdi.

Tədbirdə millət vəkili, Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri Fuad Muradov, Milli Məclisin deputatı Novruzəli Aslanov, “İrəli” Gənclər İctimai Birliyinin sədri Mirhəsən Seyidov çıxış edərək, qeyd etdilər ki, dünyanın qabaqcıl ölkələrində zamanın tələbinə uyğun olaraq Konstitusiya İslahatları aparılır. Dövlətin təhlükəsizliyinin gücləndirilməsi, iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi və insan haqlarının müdafiəsinin gücləndirilməsi üçün hüquqi ishalatların aparılmasına ehtiyac var. Dünyada və regionda cərəyan edən proseslər, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması, bunun fonunda Azərbaycana olan diqqətin artması Konstitusiya İslahatlarının aparılmasını zəruri edir. Qeyd olunub ki, sentyabrın 26-da keçiriləcək referendum Azərbaycanda yeni bir siyasi düzənin başlanğıcı olacaq və yeni iqtisadi tərəqqinin əsasını qoyacaqdır.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatı gənclər birliyinin sədr əvəzi Şəhla Qafarova, seçicilər Orxan Ağayev, Ayişə Yusifli, Sevinc Hüseynova, Anar Həsənov, ilk dəfə səs verən gənclər Namiq Vahabzadə, Nərgiz Məmmədova və başqaları çıxış edərək, qeyd etdilər ki, bu günə qədər keçirilən bütün seçkilərin nəticələri də, vətəndaşların Möhtərəm Prezidentimizə olan böyük sevgisi və rəğbəti də bizə onu deməyə imkan verir ki, xalqımız Cənab Prezidentin irəli sürdüyü bütün təşəbbüslərin, məhz insanlarımızın daha yaxşı yaşamasına, dövlətimizin daha güclü olmasına xidmət etdiyini dərk edirlər. Ona görə də, şübhə yoxdur ki, bu referendumda da biz bu dəstəyi növbəti dəfə görəcəyik. Təklif edilən dəyişikliklərlə yaş senzinin aradan qaldırılması gənclərin qarşısında yeni üfüqlər açır. Onlar dövlətimizin gənclərə göstərdiyi qayğıdan ruhlanaraq, sentyabrın 26-da seçki məntəqələrinə gedərək, Azərbaycanın işıqlı gələcəyinə, Referendum Aktına “HƏ” deyəcəklərini bildiriblər

### BİNƏQƏDİ

Dünən Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun Binəqədi rayon şöbəsi ilk dəfə səs verəcək gənclərlə görüş keçirib.

Görüşdə rayon təşkilatının fəal gənclərinin bu ilin 26 sentyabr tarixində keçiriləcək ümumxalq səsverməsinin təbliğat-təşviqat kampaniyası çərçivəsində hazırladıqları videorolik nümayiş etdirildi.

Görüşü giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov 26 sentyabrda keçiriləcək referendumla bağlı gənclərə ətraflı məlumat verdi. Bildirdi ki, növbəti Konstitusiya İslahatları sosial sifariş olaraq Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının və təhlükəsizliyinin daha təminatlı qorunması məqsədini daşıyır. Belə ki, Konstitusiya İslahatlarının əhatə etdiyi 29 maddənin 15-i, yəni 60 faizi insan hüquq və azadlıqlarının daha etibarlı qorunmasına və insanlara daha layiqli həyat səviyyəsinin yaradılmasına hesablanıb. O, ölkəmizdə və Binəqədi rayonunda həyata keçirilən uğurlu işlərdən danışaraq, bütün gəncləri ümumxalq səsverməsinə getməyə və Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən Referendum Aktı layihəsinə səs verməyə çağırdı.

Görüşdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov ölkəmizdə həyata keçirilən uğurlu gənclər siyasətindən danışdı. Dövlət başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və ölkəmizin iqtisadi inkişafına misilsiz töhfə verən iqtisadi layihələrdən bəhs etdi. Azərbaycanın bütün dünyanın diqqət mərkəzində olduğunu və ən böyük layihələrin təşəbbüskarı, birbaşa iştirakçısı kimi çıxış etdiyini nəzərə çatdırdı. S.Orucov Referendum Aktı layihəsində gənclərlə bağlı nəzərdə tutulan maddələr haqqında ətraflı danışaraq, yaş məhdudiyyətinin aradan qaldırılmasının gənclərə göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu söylədi. O, bütün gəncləri referendumda iştirak etməyə və səs verməyə çağırdı.





Görüşdə çıxış edən millət vəkili Kamaləddin Qafarov Konstitusiya İslahatlarının demokratik dövlətlərə və cəmiyyətlərə xas olduğunu və xalqın istək və arzusundan yarandığını söylədi. Dünyada baş verən böyük xaosların, müharibələrin fonunda Azərbaycan dövlətinin inkişafının və xalqın həyat səviyyəsinin günbəgün yüksəlməsinin bu referendumun keçirilməsini vacib etdiyini bildirdi. Referendum Aktı layihəsində nəzərdə tutulan maddələr haqqında ətrafında məlumat verərək, bunların ölkə vətəndaşlarının hüquq və azadlıqlarının genişlənməsinə şərait yaratdığını vurğuladı.

Görüşdə çıxış edən Binəqədi seçiciləri, ilk dəfə səs verəcək gənclər - Mərziyə Bağırlı və Oqtay Hüseynzadə gənclərə üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə öz təşəkkürlərinin bildirərək bütün həmyaşıdlarını, ilk dəfə səs verəcək gəncləri 26 sentyabrda seçki məntəqələrinə gedərək, referenduma səs verməyə çağırdılar.

***ZÜMRÜD BAYRAMOVA,***
***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# Sərhədçilərimiz əməliyyat-axtarış tədbirləri həyata keçirib

*Nəticədə narkotik vasitələrin ölkəmizə gətirilməsinin qarşısı alınmışdır*

Dövlət Sərhəd Xidmətinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinin və qaçaqmalçılığın qarşısının alınması istiqamətində fəaliyyətlərini uğurla davam etdirirlər. Sərhədçilərimizin sayıqlığı sayəsində növbəti dəfə narkotik vasitələrin ölkəmizə gətirilməsinin qarşısı alınmışdır.

18 sentyabr 2016-cı il tarixdə saat 23:20 radələrində Cəlilabad rayonunun Məlikqasımlı kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində qabaqlayıcı əməliyyat məlumatı əsasında həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində 2 kq 800 qram narkotik maddə olan tiryəki İrandan Azərbaycana gətirmək istəyərkən, İran İslam Respublikasının vətəndaşı Hidayi Səid Səxavət yaxalanmışdır. Əməliyyat-axtarış tədbirləri nəticəsində sərhəd pozucusu ilə cinayət əlaqəsində olan Cəlilabad rayon sakini Niftullayev Əhəd Ədalət oğlu narkotik maddəni ondan qəbul edərkən saxlanılmışdır. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.



## Asim Mollazadə: “İnformasiya müharibəsinə qarşı hazırlıqlı olmaq lazımdır”

“ABŞ və Qərb ölkələrində insan hüquqlarının pozulması, korrupsiya, ksenofobiya və faşizm geniş vüsət alıb. ABŞ-da qara dərililərə qarşı olan münasibət, Avropada qaçqın böhranı bunu əyani şəkildə təsdiq edir. Ümumiyyətlə bu kimi hallar onların maraq dairəsindədir”. Bunu SİA-ya millət vəkili Asim Mollazadə deyib. Millət vəkilinin sözlərinə görə, ABŞ və onun partnyorları bu gün Misir, İraq, Liviya, Suriya və digər ölkələrdə baş verən qanlı olaylara görə birbaşa cavabdehlik daşıyırlar: “Bu gün Orta Şərqdə olan proseslərə müdaxilədən sonra xeyli sayda insanın Avropaya axını başlayıb. Bu, artıq Avropa ölkələrinin qarşısında çox ciddi problemlər yaradıb. Hesab edirəm ki, hər bir atılacaq addım ciddi ölçülüb-biçilməlidir”.

A. Mollazadə həmçinin Venesiya komissiyasının Azərbaycanla bağlı neqativ rəyinə də münasibət bildirib: “Düşünürəm ki, bu kimi təşkilatlarla ciddi işləmək və onları məlumatlandırmaq lazımdır. Ümumiyyətlə informasiya müharibəsində də hazırlıqlı olmaq lazımdır.

# Konstitusiya islahatları milli maraqlarımıza və ölkəmizin inkişafına xidmət edir



*Milli Məclisin deputatı, "Yeni Azərbaycan" referendum üzrə təşviqat qrupu tərəfindən vəkil edilmiş şəxs Nizami Cəfərovun yap.org.az-a müsahibəsi*

***– Nizami müəllim, sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsi - referendum Konstitusiya islahatları sahəsində növbəti mühüm mərhələ kimi səciyyələndirilir. Bu referendumun keçirilməsini zəruri edən başlıca amilləri necə təsnif etmək olar?***

- Düşünürəm ki, "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər haqqında" Referendum Aktının fəlsəfəsində bir birilə dialektik, sıx bağlı olan iki məsələ dayanır. Onlardan birincisi, dünyada baş verən iqtisadi, ictimai-siyasi proseslər və bu proseslər zəminində xalqımızın, dövlətçiliyimizin maraqlarının qorunmasıdır. Yəni bu elə bir məsələdir ki, hər bir dövlət, böyük və kiçik xalq və ya dövlət olmasından asılı olmayaraq özünü müdafiə etməlidir.

Tarix boyu belə olub. Müasir dünyanın öz prinsipləri, öz modelləri, özünü qoruma texnologiyaları var. Azərbaycan bu baxımdan olduqca mükəmməl konsepsiyaya malikdir. Hətta məsələ yalnız konsepsiya səviyyəsində qalmır, kifayət qədər böyük təcrübə əldə olunub.

İkinci məsələ isə ondan ibarətdir ki, Azərbaycanda demokratiyanın inkişafı, Azərbaycan vətəndaşının şəxsiyyətinin qorunması, həyatının təmin olunması faktoruna yüksək səviyyədə əməl edilir. Yəni ölkəmizdə müasir dünyanın insan hüquqları deyilən normal fəlsəfəsinə əməl olunur. Bunun üçün də hər iki məsələ, həm özünü qorumaq, həm də insan hüquqlarının qorunması üçün dövlətin, hakimiyyətin möhkəmləndirilməsinə ardıcıl olaraq çox böyük zərurət var. Fikrimcə, bu referendum aktının da əsas vəzifəsi bu iki zəruri tələbi əlaqələndirmək və hakimiyyətin daha dinamik və uğurlu şəkildə bu tələblərin ödənilməsinə istiqamətləndirməkdir.

***– Konstitusiya dəyişikliklərinin həyata keçirilməsi digər sahələri əhatə edən ardıcıl islahatların səmərəliliyi və davamlılığına necə təsir göstərəcək?***

- Hər bir demokratik dövlətin davamlı inkişafını şərtləndirən başlıca amillərdən biri ardıcıl islahatların həyata keçirilməsidir. Siyasi, iqtisadi, hüquqi və digər sahələri əhatə edən fundamental islahatlar çoxşaxəli, ardıcıl və dinamik inkişafı təmin etməklə yanaşı, yeni inkişaf perspektivlərinin müəyyənləşdirilməsini təmin edir. Bəli, fundamental islahatlar sırasında ölkənin Ana Qanunu kimi səciyyələndirilən konstitusiya islahatları xüsusi yer tutur.

Əminliklə qeyd etmək olar ki, demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycanda daxili siyasət kursunun mühüm istiqamətlərindən birini çoxşaxəli islahatların davamlılığının təmin edilməsi təşkil edir. Azərbaycanda həyata keçirilən islahatlar, əsas etibarilə, siyasi sistemin təkmilləşməsinə, idarəetmənin effektivliyinin artırılmasına, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə və digər strateji məqsədlərə xidmət edir. Ölkəmizdə konstitusiya islahatları da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, 1995-ci il noyabr ayının 12-də referendumla qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında ötən müddət ərzində müəyyən dəyişikliklər və əlavələr edilmişdir. 24 avqust 2002-ci il və 18 mart 2009-cu il keçirilən ümumxalq səsverməsi-referendumlar vasitəsilə Konstitusiyaya edilən əlavə və dəyişikliklər qanunvericilik bazasının zənginləşməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsinə, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına fundamental töhfələr bəxş edib.

***– Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin mahiyyəti barədə nə deyə bilərsiniz?***

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsində əsas etibarilə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, idarəetmənin təkmilləşdirilməsi, təhlükəsizliyin daha da möhkəmləndirilməsi və bir sıra digər məsələlər əks olunub ki, bu da ölkəmizdə islahatlar fəlsəfəsinin məhz milli maraqlara və inkişafa xidmət etdiyini göstərir.

Konstitusiyaya təklif edilən edilən əlavə və dəyişikliklər özündə kompleks məsələləri ehtiva edir. Əvvəla, onların bir hissəsi insan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunub. Yəni bir sıra əlavə və dəyişikliklərdə insanların şərəf və ləyaqətinin qorunması, onların hüquqlarının müdafiə olunması, ayrı-ayrı orqanlarda vətəndaşların müraciətlərinə baxılması, onların təhlükəsizliyinin təmin olunması, o cümlədən müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə fərdin hüquqlarının pozulmasının qarşısının alınması kimi məsələlər əsas götürülüb. Digər tərəfdən, layihədə əks olunmuş təklifə əsasən, Azərbaycan Respublikasının birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər. Eyni zamanda, layihədə Konstitusiyaya "Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir" məzmunlu cümlənin əlavə edilməsi də qeyd edilib. Məhz bu, odarəetmə sistemində yeni keyfiyyət dəyişikliyi yaratmaqla bu sahədə daha çevik və effektiv fəaliyyəti təmin etmiş olacaq. Bununla yanaşı, Silahlı Qüvvələrlə bağlı təklif olunan dəyişikliklər də təqdirəlayiqdir. Əgər bu günə qədər Ali Baş Komandan statusu yalnız Ordu, Silahlı Qüvvələr üzərində idisə, artıq Konstitusiyaya təklif olunan dəyişikliklərə əsasən, bütün silahlı birləşmələr Ali Baş Komandanın əmrinə tabe olacaq. Yeni Konstitusiya dəyişikliklərində bütün silahlı birləşmələr üzərində vahid komandanlığın tətbiqi məsələsi öz əksini tapır. Digər mühüm və vacib məqamlardan biri isə prezidentlik müddətinin 5 ildən 7 ilə artırılması ilə bağlıdır. Bu, həm dövlət başçısına irəli sürdüyü proqram və layihələri daha məqbul zaman formasında icra etməyə imkan verir, həm də özündə dünya təcribəsini ehtiva edir. Qeyd edim ki, hazırda dünyanın 30-a yaxın ölkəsində prezidentlik müddəti 7 ildir. İtaliya, İsrail, İslandiya, Qazaxıstan kimi ölkələrdə də prezidentlik müddəti 7 il olaraq təsbit edilib.

***– Yeri gəlmişkən, ümumxalq səsverməsinə çıxarılan məsələlər sırasında insan hüquqlarının müdafiəsi də xüsusi yer tutur...***

- Referendum Aktının layihəsində əksini tapan bütün məsələlər məhz vətəndaşların hüquq və azadlıqlarının etibarlı qorunmasını, onların həyat şəraitinin daha da yaxşılaşmasını, dövlət qurumlarının məsuliyyətinin artırılması və digər sosial məzmunlu məqamları özündə ehtiva edir. Bu fikiri daha dəqiq ifadə etmək üçün bir sıra nümunələrə nəzər yetirmək gərəkdir. Layihədə Konstitusiyanın 24-cü maddəsində III hissəyə "Hüquqlardan sui-istifadəyə yol verilmir" məzmunlu cümlənin əlavə edilməsi qeyd edilib. Bu, hüquqi dövlətin təməllərinin möhkəmləndirilməsinə xidmət etməklə yanaşı, hüquqlardan sui-istifadə hallarına qarşı effektiv mübarizəyə xidmət edən addım kimi xarakterizə edilə bilər. Hüquqların qorunmasından bəhs edərkən yeni layihədə 32-ci maddəyə "Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır", "Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz" və "Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir" məzmunlu VI, VII və VIII hissələrin Konstitusiyaya əlavə edilməsi də qeyd edilib. Bəhs edilən layihədə təhlükəsizliklə bağlı məsələlər də yer alıb. 58-ci maddənin IV hissəsinin birinci cümləsinin aşağıdakı "Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır" redaksiyada verilməsi qeyd edilib. Bununla yanaşı, Referendum Aktının layihəsində Konstitusiyaya "Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar" məzmunlu cümlənin əlavə edilməsi də qeyd edilib. Eyni zamanda, layihədə Konstitusiyanın 29-cu maddəsində V hissəyə "Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur" məzmunlu cümlənin əlavə edilməsi qeyd edilib.

***– "Yeni Azərbaycan" təşviqat qrupu təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Təşviqat qrupunun fəaliyyətinə, vətəndaşlarla görüşlər zamanı müşahidə edilən reallıqlara dair nə deyə bilərsiniz?***

- Bütövlükdə, Konstitusiyaya təklif olunan əlavə dəyişikliklər Azərbaycan Respublikasında gedən iqtisadi inkişafdan, ölkədə vətəndaşların hüquq və azadlıqlarının qorunması, dövlət strukturlarının təkmilləşdirilməsi, Silahlı Qüvvələrin gücləndirilməsi, respublikanın təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, vətəndaşların məhkəmələrə özlərinin hüquqlarının qorunması üçün müraciətlərinin tam şəkildə təmin edilməsi, aidiyyatı orqanların fəaliyyətindən və ya fəaliyyətsizliyindən müraciət olunması, o cümlədən seçkili orqanlarda iştirak və burada olan baryerlərin aradan qaldırılması zərurətindən, bilavasitə Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalardan, ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasından irəli gələn dəyişikliklərdir. Bir sözlə, milli maraqlara xidmət edən Konstitusiya islahatları zərurətdən qaynaqlanır.

Təbii ki, referendum aktının qəbul olunması üçün "Yeni Azərbaycan" təşviqat qrupu xüsusi kampaniya həyata keçirir. Bu prosesdə YAP-ı təmsil edən millət vəkilləri, hüquqşünaslar, iqtisadçılar, yeni mütəxəssislər iştirak edirlər. Burada referendum aktının məzmununun cəmiyyətə çatdırılması əsas məsələdir. Məncə, insanlarla görüşdə təbliğatçılar üçün heç bir çətinlik yoxdur. Çünki cəmiyyətimiz kifayət qədər hazırlıqlı cəmiyyətdir. Müstəqillik illəri ərzində ölkədə aparılan siyasət elədir ki, Azərbaycan cəmiyyəti dünyaya açıqdır, dünyada, ölkədə baş verən prosesləri dərindən araşdırmaq, müqayisə aparmaq imkanına malikdir. Ona görə də, bu məsələdə təbliğatın normal gedişi üçün hər cür şərait var.

Sadəcə olaraq, bu proses həm də onunla əlamətdardır ki, cəmiyyətimiz dövlətin işində bilavasitə iştirak səviyyəsini daha da artıracaq. Yəni bizim cəmiyyətimiz istənilən məsələni, xalqın, dövlətin, hətta dünyanın taleyi ilə bağlı olan məsələləri çox obyektiv şəkildə müzakirə etmək və qərar qəbul etmək imkanına malikdir.

Mən bütün seçiciləri sentyabrın 26-da seçki məntəqələrinə dəvət edir, onları referendum aktına səs verməyə çağırıram. İnanıram ki, belə də olacaq.

# İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) institutu

**_İlk dəfə XIX əsrdə, 1809-cu ildə İsveçdə yaranan vətəndaşların qanuni maraq və Hüquqlarının Müdafiəsi İnstitutu Ombudsman İngiltərədə parlament komissarı, Avstriyada xalq müdafiəçisi, Fransada mediator adlansa da, eyni funksiyanı yerinə yetirirlər. XX əsrin 50-ci illərində Ombudsman İnstitutu yalnız iki ölkədə - İsveçdə və Finlandiyada mövcud idi. İkinci Dünya müharibəsindən sonra bu institutut bütün Avropa ölkələrinə və dünyanın digər regionlarına yayıldı. Ombudsman İnstitutu demokratik xarakterilə diqqəti cəlb etdi. Bu institut dövlət orqanları sistemində müstəqil vəziyyətdə idi, parlamentin bütün müddəti ərzində dəyişməz idi, qanunvericilik təşəbbüs hüququna malik idi, hüquq və azadlıqlarının müdafiə etməyə ehtiyacı olan bütün vətəndaşlar üçün açıq idi, vətəndaşlara pulsuz hüquqi yardım göstərirdi._**

Avstraliyalı hüquq doktoru V.Pikim Ombudsman haqqında deyir: "Onun yaradılması və fəaliyyəti dövlət və vətəndaşlar, idarə olunan və idarə edənlər arasındakı münasibətlərdə yeni yol açdı".

Avropada üç Ombudsman İnstitutu - İsveç, ingilis və fransız modelləri geniş yayılmışdır.

Ombudsmanın bir çox ölkələrdə geniş yayılmış fəaliyyəti formasından bütün qanunvericilik təşəbbüsü ilə çıxış etməsidir ki, bu ona insan hüquq və azadlıqları sahəsində normativ-hüquqi aktların qəbul edilməsi zamanı hökumətə və ya parlamentə qanunların dəyişdirilməsi və təkmilləşdirilməsi üçün təkliflər verməyə imkan yaradır. Bəzi Avropa ölkələrində - İspaniya, Avstriya və Portuqaliyada Ombudsman Konstitusiya Məhkəməsinə şikayət vermək hüququna malikdir. Bundan başqa, bəzi ölkələrdə Ombudsman ixtisaslaşdırılaraq müxtəlif sahələri əhatə edir. Finlandiyada qadın və kişilərin bərabərhüquqlu məcəlləsinə dair, Macarıstanda milli və etnik azlıqların işlərinə dair, Almaniya və Danimarkada müdafiə işlərinə dair, orduda vəziyyətə dair ombudsmanlar da mövcuddur.

Beləliklə, hüquqi dövlətdə Ombudsman İnstitutunun əsas demokratik xüsusiyyətləri onun müstəqilliyi, bütün vətəndaşlar üçün açıqlığı bir çox demokratik ölkələrin hüquq müdafiəsi sistemində möhkəm yer tutmasına səbəb olmuşdur.

Müvəkkilin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

Müvəkkilin fəaliyyətinin əsas istiqamətləri ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzim edilir. Adıçəkilən Konstitusiya Qanununun 1.1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir.

Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərinə, həmçinin, aşağıdakılar aiddir:

- Əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verir;
- Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verir;
- Azərbaycan Respublikasının Milli Məclisinə amnistiya elan edilməsi barədə təklif verə bilməsi;
- Məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə, məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxır.

Qeyd etmək lazımdır ki, müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir.

Xüsusi olaraq, vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının və Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması müvəkkilin səlahiyyətlərinə aid deyil.

İnsan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı müvəkkilin aşağıdakı hüquqları vardır:

- maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanılma yerlərinə daxil olmaq;
- cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslərlə görüşmək və təkbətək söhbət etmək;
- onların həmin yerlərdə saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olmaq;
- dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən zəruri məlumat, sənəd və materialları 10 gün müddətində almaq;
- cinayət, mülki və inzibati işlərə dair qanuni qüvvəyə minmiş qərarlarla, həmçinin, cinayət işlərinin başlanmasının rədd edilməsi barədə materiallarla tanış olmaq;
- şikayətin araşdırılması zamanı vəzifəli şəxslərdən yazılı arayışlar almaq;
- şikayətdə əks etdirilmiş halların yoxlanılması üçün müvafiq orqanlara tapşırıq vermək (yoxlama, qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən orqana və ya vəzifəli şəxsə tapşırıla bilməz);
- müvafiq dövlət orqanları və təşkilatlarına ekspert rəyinin hazırlanmasını tapşırmaq;
- dövlət və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, cəzaçəkmə müəssisələrinin, istintaq təcridxanalarının və müvəqqəti saxlanılma yerlərinin rəhbərliyi tərəfindən təxirəsalınmadan qəbul edilmək.

İnsan hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda müvəkkil öz təşəbbüsü ilə araşdırma apara bilər.

Araşdırma zamanı şikayətdə qeyd olunmayan digər hallar aşkar edilərsə, araşdırma müvəkkilin səlahiyyətlərinə aid olduqda, onun tərəfindən aparılır, onun səlahiyyətlərinə aid olmadıqda isə, materiallar digər səlahiyyətli dövlət orqanlarına göndərilir.

Şikayətə 30 gün müddətində baxılır. Şikayətə baxmaq üçün əlavə yoxlama aparmaq və ya material tələb etmək zərurəti yarandıqda, müraciətə baxılma müddəti 30 gün də uzadıla bilər. Ərizəçinin yazılı razılığı ilə əlavə yoxlama aparmaq lazım gəldiyi halda, müraciətin baxılma müddəti yenidən uzadıla bilər.

Müvəkkil şikayətin araşdırılması zamanı insan hüquqlarının pozulması hallarını aşkar etdikdə, aşağıdakı tədbirləri həyata keçirə bilər:

- qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində, insan hüquqlarını pozmuş dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək (müvafiq orqanlar, vəzifəli şəxslər 10 gün müddətində müvəkkilə görülən tədbirlər barədə yazılı surətdə məlumat verməlidirlər. Məlumat verilmədiyi və ya müvəkkilin tələbləri həyata keçirilmədiyi hallarda müvəkkil həmin təşkilatın yuxarı orqanına və ya digər dövlət orqanlarına müraciət edə bilər);
- cinayət əlamətləri aşkar edildikdə, müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək;
- əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək;
- qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində, insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq orqanlara təkliflər vermək;
- insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə kütləvi informasiya vasitələrini tanış etmək;
- insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün müvəkkilin səlahiyyətlərində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məruzə ilə çıxış etmək;
- dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində, pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək;
- şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.

**_Vahid ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




_Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb_

*Azərbaycanın bütün bölgələrində olduğu kimi, Bakı şəhərində də Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun 26 sentyabr 2016-cı il tarixində keçiriləcək referendumla əlaqədar təbliğat-təşviqat kampaniyası davam edir. Təşviqat Qrupu növbəti dəfə Bakı şəhəri Yasamal rayonunun ərzisində seçicilərə referendumla bağlı bülleten materiallarını paylayıb.*



# "Həmrəy olaq. HƏ deyək"










## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Texnologiya ixtisası üzrə II kurs tələbəsi Haqverdiyev Kənan Akif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.









*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**